QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 104 (5335) 13 **iyun** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Regionların sosial-iqtisadi inkişafı dövlətin prioritetidir

*Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təsdiqlənərək reallaşdırılan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları respublikamızın bölgələrində böyük dönüş yarada bilib*



Səh 2

**Akademik Həsən Əliyevin anadan olmasının 110 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçiriləcək**



3

**Elçin Quliyev Türkiyə Quru Qoşunlarının Komandanı ilə görüşüb**



3

**"Milli Qurtuluşdan İntibaha"**



4

**YAP Kürdəmir rayon təşkilatının X konfransı keçirilib**



5

**Türkiyə Quru Qoşunları komandanı Azərbaycanda medalla təltif olunub**



9

**Azərbaycan Həmkarlar İttifaqları Ulu Öndərin ideyalarına həmişə sadiqdir**



8

9

**Bu ilin beş ayında Azərbaycana 958 min turist gəlib**



3

**Bu gün Milli Məclisin növbədənkənar plenar iclası keçiriləcək**



16

**"Lion"un yarımmüdafiəçisi "Fənərbaxça"ya transfer olunub**



# Regionların sosial-iqtisadi inkişafı dövlətin prioritetidir

*Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təsdiqlənərək reallaşdırılan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları respublikamızın bölgələrində böyük dönüş yarada bilib*



***Bölgələrinin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının icrası böyük əhəmiyyət kəsb edir. Regional inkişaf üzrə dövlət proqramları əhalinin işgüzar fəallığının artmasına, regionlarda sahibkarlıq fəaliyyətinin daha da genişlənməsinə, infrastruktur layihələrinin həyata keçirilməsinə, beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən yeni müəssisə və obyektlərin yaradılmasına səbəb olmuş, vətəndaşların rifahını xarakterizə edən keyfiyyət göstəricilərini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb.***

Yeni sosial-iqtisadi inkişaf mərhələsində olan ölkəmizdə iqtisadiyyatın dinamik inkişafı ilə əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi sahəsində dövlətin məqsədyönlü siyasətinə uyğun olaraq Dövlət Proqramında bütün regionlarda, eləcə də, ölkə paytaxtında mövcud potensialdan daha səmərəli istifadə etməklə qeyri-neft sektorunun inkişafı, kommunal xidmət və digər infrastruktur obyektlərinin, yeni istehsal və emal müəssisələrinin yaradılması, mövcud müəssisələrdə istehsal fəaliyyətinin genişləndirilməsi, rabitə və informasiya texnologiyalarının tətbiqinin sürətləndirilməsi, sosial infrastrukturun yaxşılaşdırılması, o cümlədən, müasir standartlara uyğun təhsil, elm, səhiyyə, mədəniyyət və idman obyektlərinin inşası, yenidən qurulması, əlillər və şəhid ailələri üçün yaşayış binalarının tikintisi üzrə kompleks tədbirlər reallaşdırılır.

Məhz Azərbaycan Prezidenti İlham Əliyevin son sərəncamları bu tədbirlərin daha da sürətləndirilməsinə xidmət edir. Belə ki, Zaqatala rayonunda yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Zaqatala rayonunda yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması üçün "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə 4,4 milyon manat, o cümlədən, Yevlax-Zaqatala-Gürcüstanla dövlət sərhədi avtomobil yolunun Yuxarı Tala kəndi ərazisindən keçən hissəsinin yenidən qurulması üçün 1,8 milyon manat, şəhər ərazisindəki yeraltı piyada keçidinin tikintisinin başa çatdırılması üçün 2,6 milyon manat, Lənkəran şəhərində qəzalı vəziyyətdə olan 13 çoxmənzilli binada əsaslı təmir və bərpa işlərinin həyata keçirilməsi üçün Lənkəran şəhər icra hakimiyyətinə 7,5 milyon manat, Astara şəhərində Dənizkənarı Park-Bulvar Kompleksi ərazisinin genişləndirilməsi üçün Astara rayon icra hakimiyyətinə 3 milyon manat vəsait ayrılıb. Bununla yanaşı, 21 min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Mehdiabad-Digah-Məmmədli avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 2,5 milyon manatı "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb. Həmçinin, on səkkiz min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Ağstafa-Köçəsgər avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,8 milyon manatı "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb. Bununla yanaşı, Astara şəhərində Dənizkənarı Park-Bulvar Kompleksi ərazisinin genişləndirilməsi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Astara rayon icra hakimiyyətinə 3 milyon manat ayrılıb.



Göründüyü kimi, Prezident İlham Əliyevin son bir neçə gün ərzində imzaladığı sərəncamlarla bölgələrin inkişafı üçün 30 milyon manata yaxın maliyyə vəsait ayrılıb. Məhz bu günə qədər Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təsdiqlənərək reallaşdırılan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları respublikamızın bölgələrində böyük dönüş yarada bilib, Azərbaycanın iqtisadi potensialının gücləndirilməsində böyük rol oynayıb. Azərbaycanda aparılan islahatlar, düşünülmüş siyasət ölkəmizin hərtərəfli inkişafına təkan verib. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycan gələcəyə çox böyük ümidlərlə və nikbinliklə baxır. Bunun əsas səbəbi iqtisadi müstəqillik, iqtisadi güc və siyasi iradədir. Eyni zamanda, iqtisadi inkişafın başlıca səbəbi aparılan islahatlar, ölkəmizdə hökm sürən sabitlik, ictimai asayişdir və Azərbaycanda iqtisadi islahatlar siyasi islahatlarla tamamlanır.

***"Səs" Analitik Qrupu***

# Baş nazir Artur Rasi-zadə: Azərbaycan Estoniya ilə qarşılıqlı faydalı əməkdaşlığa önəm verir

***İyunun 12-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Bakıda səfərdə olan Estoniya Respublikasının xarici işlər naziri Sven Mikser ilə görüşüb. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat veriblər.***



Azərbaycan-Estoniya əlaqələrini yüksək qiymətləndirən Baş nazir Artur Rasi-zadə qeyd edib ki, yüksək templərlə inkişaf edən Azərbaycan iqtisadiyyatı Avropanın enerji təhlükəsizliyinin təminatında yaxından iştirak etməklə yanaşı, Avropa ailəsinin üzvü kimi Estoniya ilə də qarşılıqlı faydalı əməkdaşlığa önəm verir. Bu baxımdan ölkələrimiz arasında davam edən xoşməramlı dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi, iqtisadi-mədəni əlaqələrin genişləndirilməsi üçün siyasi iradə və zəruri hüquqi baza mövcuddur.

Söhbət zamanı vurğulanıb ki, iqtisadiyyatın müxtəlif sahələri üzrə, xüsusən qeyri-neft sektorunda, kənd təsərrüfatı, nəqliyyat, informasiya texnologiyaları, ticarət, turizm, humanitar sferalarda dövlət və özəl sektor təmsilçilərinin müştərək layihələr üzərində işləməsi, həmçinin Avropa İttifaqı çərçivəsində birgə əməkdaşlığın genişləndirilməsi hər iki ölkənin mənafeyinə uyğundur. Qeyd edilib ki, qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların olduğu şəraitdə mövcud potensialdan daha səmərəli istifadə etmək vacibdir.

Görüşdə beynəlxalq və regional problemlər ətrafında söhbət gedərkən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Baş nazir Artur Rasi-zadə münaqişənin nizama salınması istiqamətində respublika rəhbərliyinin göstərdiyi səylərdən, lakin bəzi ölkələrin bu məsələdə nümayiş etdirdikləri ikili standartlardan danışıb və bir daha xatırladıb ki, məsələnin həlli yalnız hüquq normaları çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında mümkündür. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# AŞPA Monitorinq Komitəsinin həmməruzəçiləri Milli Məclisdə olublar

***İyunun 12-də Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Preda və Stefan Şennak ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Milli Məclisin sədri Azərbaycan ilə AŞPA və onun qurumları arasında əlaqələrin dərinləşməsinin tərəflərin maraqlarına cavab verdiyini söyləyib. Qeyd edilib ki, Azərbaycan nümayəndə heyətinin üzvləri qurumun Parlament Assambleyasının tədbirlərində mütəmadi iştirak edir, müzakirə olunan məsələlərə Azərbaycan tərəfinin mövqeyini bildirirlər. Biz AŞPA ilə qarşılıqlı faydalı əməkdaşlığın tərəfdarıyıq.***



Sədr ümidvar olduğunu bildirib ki, həmməruzəçilər səfər müddətində onları maraqlandıran məsələlər haqqında ətraflı, obyektiv məlumatlar alacaq və gələcəkdə hazırlayacaqları hesabatda bu məlumatlar olduğu kimi öz əksini tapacaq. Monitorinq Komitəsinin həmməruzəçisi Sezar Florin Preda ölkəmizə səfərlərindən və burada keçirdikləri görüşlərdən məmnun qaldıqlarını bildirib. Qonaq səfərin məqsədini açıqlayaraq, bölgədəki vəziyyətlə yaxından tanış olmaq, Azərbaycanla AŞPA arasında münasibətlərin bu günü və inkişaf perspektivləri barədə daha çox məlumat almaq istəklərini dilə gətirib. Görüşdə çıxış edən Stefan Şennak səfər çərçivəsində əldə etdikləri məlumatların gələcəkdə hazırlayacaqları hesabatda öz əksini obyektiv tapacağını bildirib. Qonaqlar təmsil etdikləri təşkilatın Azərbaycan ilə əməkdaşlığın daha da dərinləşməsində maraqlı olduqlarını söyləyiblər.

***

Daha sonra Sezar Florin Preda və Stefan Şennak Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvləri ilə görüşüblər.

Azərbaycan parlamentinin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov qurumun payız sessiyası üçün Azərbaycan barədə məruzə hazırlamaq məqsədilə ölkəmizə səfərə gələn həmməruzəçilərə uğurlar arzulayıb. Məlumat verilib ki, Azərbaycan parlamenti çox aktiv fəaliyyətdədir. Avropa Şurası ilə birgə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün bütün imkanlar səfərbər olunub. Ölkəmiz götürdüyü öhdəliklərin əksəriyyətini yerinə yetirib. S.Seyidov qanunvericiliyin təkmilləşdirilməsi baxımından Cinayət Məcəlləsində aparılan dəyişikliklərdən də söz açıb. AŞPA Monitorinq Komitəsinin həmməruzəçisi Stefan Şennak Azərbaycana növbəti səfərdən məmnunluqlarını bildirib. Yaxın günlərdə Milli Məclisdə keçirilmiş AŞPA-nın sosial məsələlər, sağlamlıq və davamlı inkişaf üzrə komitəsinin iclasında iştirak edə bilməməsindən təəssüfləndiyini qeyd edib. Belə tədbirlərin əhəmiyyətini yüksək dəyərləndirib.

Görüşdə ikitərəfli əlaqələrin genişləndirilməsi, əməkdaşlığın daha da möhkəmləndirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi kimi qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Görülən işlərdən və həyata keçirilləcək tədbirlərdən söhbət açılıb. Milli Məclisin deputatları AŞPA Monitorinq Komitəsinin həmməruzəçilərini maraqlandıran suallara aydınlıq gətiriblər.

## Akademik Həsən Əliyevin anadan olmasının 110 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçiriləcək



Əmlak Məsələləri Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə iyunun 13-də "Azərbaycanda torpaq idarəçiliyində kadastr və coğrafi informasiya məlumatlarından istifadənin elmi əsasları" mövzusunda elmi-praktik seminar keçiriləcək. Tədbir görkəmli coğrafiyaçı və torpaqşünas alim, akademik Həsən Əliyevin anadan olmasının 110 illiyinə həsr olunub.

Komitədən AZƏRTAC-a bildirilib ki, tədbirdə Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov və Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə iştirak edəcəklər. Elmi seminarda torpaq idarəçiliyində müasir yanaşmalar, kadastr məlumatlarından istifadənin elmi əsasları, coğrafiya-informasiya sistemlərinin tətbiqi, torpaqlardan istifadə problemlərinin araşdırılması və digər bu kimi mövzularda təqdimatlar olacaq. Elmi-praktik seminarın keçirilməsində məqsəd torpaq idarəçiliyində kadastr məlumatlarından və aqroiqlim ehtiyatlarından daha səmərəli istifadə, torpaq ehtiyatlarının mənimsənilməsində coğrafi informasiya məlumatlarının rolu, kənd təsərrüfatı ərazilərinin planlaşdırılması məsələlərində ən son elmi nailiyyətlərin tətbiqi və bu sahədə əməli təkliflərin hazırlanmasıdır. Konfrans çərçivəsində Əmlak Məsələləri Dövlət Komitəsi ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında torpaq ehtiyatlarının idarə olunması, kənd təsərrüfatı ərazilərinin planlaşdırılması sahəsində əməkdaşlıq barədə memorandumun imzalanması da nəzərdə tutulur.

## Elçin Quliyev Türkiyə Quru Qoşunlarının Komandanı ilə görüşüb



Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev 12 iyun 2017-ci il tarixdə Dövlət Sərhəd Xidməti Aparatında Türkiyə Respublikası Quru Qoşunlarının Komandanı, ordu generalı Salih Zeki Çolakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. SİA-ya Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən verilən məlumata görə, görüşdə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Türkiyə Respublikasının Quru Qoşunları arasında ikitərəfli əlaqələrin vəziyyəti yüksək qiymətləndirilmiş və əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Söhbət əsnasında transsərhəd cinayətkarlığı ilə mübarizədə həyata keçirilmiş tədbirlər, sərhəd mühafizə sisteminin gücləndirilməsi, maddi-texniki bazanın təkmilləşdirilməsi üzrə görülmüş işlər və əldə olunmuş nailiyyətlər barədə məlumat verilib. Tərəflər arasında sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə qarşılıqlı təcrübə mübadiləsinin aparılması, sərhəd təlimlərinin və birgə tədbirlərin keçirilməsi istiqamətində əməkdaşlığın genişləndirilməsinin zəruriliyi vurğulanıb. Görüş dostluq və qarşılıqlı anlaşma şəraitində keçib.

## Bu gün Milli Məclisin növbədənkənar plenar iclası keçiriləcək



İyunun 13-də Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar plenar iclası keçiriləcək. Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda 38 məsələ müzakirə olunacaq.

Deputatlar "Bədən tərbiyəsi və idman haqqında", "Atçılıq haqqında", "Damazlıq heyvandarlıq haqqında", "Turizm haqqında", "Təhsil haqqında", "Sosial müavinətlər haqqında", "Sosial sığorta haqqında", "Məşğulluq haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Bələdiyyə qulluğu haqqında", "Sığorta fəaliyyəti haqqında", "İcbari sığortalar haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Əmək pensiyaları haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Valyuta tənzimi haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında", "Sığorta fəaliyyəti haqqında", "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Dövlət qulluğu haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihələrinə baxacaqlar. İclasda, həmçinin Cinayət, İnzibati Xətalar, Əmək, Mənzil, Torpaq, Gömrük və Vergi məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihələri nəzərdən keçiriləcək. Bundan başqa, "İşsizlikdən sığorta haqqında" qanun layihəsinə də baxılacaq.

# “Milli Qurtuluşdan İntibaha”












***Dünən Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi aparatı, Azərbaycan Dövlət Pedaqoji Universiteti və “Səs” Media Qrupunun birgə təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunan tədbir keçirilib. SİA-nın xəbərinə görə, “Milli Qurtuluşdan İntibaha” adlı tədbirdə YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev, “Səs” Media Qrupunun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu, YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov və digərləri iştirak ediblər. Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra 15 İyun tarixini əks etdirən qısametrajlı film nümayiş etdirilib.***

Tədbirdə ilk çıxış edən YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, müstəqillikdən sonra qarşımızda çox böyük vəzifələr dayanmışdı ki, bunlardan biri milli müstəqilliyin dönməzliyi idi.

Onun sözlərinə görə, Sovetlər İttifaqı çökdükdən sonra ölkəmizdə müstəqil dövlət quruculuğu yerinə yetirilməli idi: “Lakin o zaman siyasətdən uzaq adamların idarəçiliyə gəlməsi ölkəmiz üçün çox çətinliklər yaratmışdı. Biz başqa respublikaların ilk müstəqillik tarixinə baxdıqda orada siyasi elitanın qarşısındakı vəzifələri düzgün yerinə yetirdiyini görsək də, Azərbaycan haqqında bunu deyə bilmərik. Məhz bunun nəticəsində də o dövrdə Azərbaycanda müxtəlif qrupların toqquşması baş verdi və Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasəti həyata keçirmiş oldu. O dövrdə ölkənin müstəqilliyini qorumaq çox çətin idi. Lakin xalqın təkidi ilə Azərbaycanda hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev bu çətin işi yerinə yetirə bildi”.

Komitə sədri qeyd edib ki, bu gün 1990-cı illərdə baş verənləri gözü ilə görənlərlə yanaşı, onu kitablardan oxuyanlar da var: “Bu baxımdan belə tədbirlərin keçirilməsi mütləqdir. Tarixdə Azərbaycan xalqının böyük izi var və biz bu tarixi nailiyyətləri unutmamalıyıq. Ulu Öndərin hakimiyyətə qayıdışı şəxsi ideya deyil, Azərbaycançılıq ideyasının təşəbbüsü idi. Ümummilli liderin atdığı addımlar Azərbaycanın gerilikdən inkişafa, xaosdan intibaha apardı. Milli Qurtuluş Günü bizim tariximizdir. Hər kəsi bu bayram münasibətilə təbrik edirəm”.

Sonra çıxış edən YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev Ulu Öndərin vaxtilə dediyi bir tezisi təkrar edib: “Müstəqilliyi qazanmaq asan olsa da, onu əldə saxlamaq çox çətindir”.

1991-ci ildə baş verənlərin uzaq tarixdə qalmadığını deyən YAP Səbail rayon təşkilatının sədri qeyd edib ki, müstəqilliyimizi elan edəndən sonra doğulan gənclərimiz bu tarixi bilməli və zaman-zaman Azərbaycanın başına gələnlərlə bağlı düzgün məlumat almalıdırlar: “1990-cı ilin əvvəlində Azərbaycanın bir dövlət kimi tarixdən silinməsi təhlükəsi yaranmışdı. Bundan başqa Xocalı faciəsi və digər rayonlarımızın işğalı çox ciddi problemlər yaratmışdı. O zaman hakimiyyətə gələn səriştəsiz, təcrübəsiz insanlar ölkəni uçuruma aparırdılar. İnflyasiyanın səviyyəsi 1600 faizə çatmışdı. Tarixdə heç bir ölkədə belə hal qeydə alınmayıb. Ölkəmiz tənəzzülə, uçuruma doğru gedirdi. Heç bir müəssisə işləmir, iş yerləri yox idi. Bir sözlə Azərbaycanda acınacaqlı dövr idi. Ölkəmiz parçalanmaq təhlükəsi ilə üz-üzə dayanmışdı. O zaman hakimiyyətdə olanların özləri də çaş-baş qalmışdılar. Xəzinədə pul yox idi. Həmin dövrdə rəhbərlikdə olanlar milli-mənafedən çox-çox uzaq idilər. Azərbaycan xalqı bütün bunları gördüyü üçün haqlı olaraq Ulu Öndərin hakimiyyətə qayıdışını tələb etdi və Ümummilli Lider bütün çətinliklərə baxmayaraq, ölkəmizi bəlalardan qurtardı. Yalnız bundan sonra müstəqil Azərbaycanın dövlətçilik tarixi başladı. Ulu Öndər qısa zamanda ölkəmizi çətinliklərdən çıxara bildi”.

Daha sonra çıxış edən “Səs” Media Qrupunun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev bildirib ki, Azərbaycan xalqının taleyinə bir əsrdə iki dəfə müstəqillik qazanmaq yazılıb: “1918-ci ildə Azərbaycan obyektiv, zərurətdən irəli gələn müstəqillik qazansa da, onu əldə saxlaya bilmədi. Daha sonra 1990-cı ildə yenidən müstəqillik qazanmaq şansı əldə etdik. Lakin həmin dövrdə müstəqilliyi qorumaq üçün güclü liderə ehtiyac var idi. 1990-cı illərin əvvəlində Azərbaycan müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalanda xalqın təkidi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı bu təhlükəni aradan qaldırmış oldu”.

1992-ci ildə ziyalıların Ulu Öndər Heydər Əliyevə ilk müraciətinin “Səs” qəzetində dərc edildiyini deyən B.Quliyev əlavə edib ki, Ümummilli Lider Heydər Əliyevin həmin ziyalılara cavabı da məhz “Səs” qəzetində dərc edilib: “Mən bu sənədi müstəqilliyimizin qorunması naminə yazılmış Konsepsiya adlandırardım. Çünki həmin sənəddə müstəqilliyin qorunması naminə atılmalı addımlar öz əksini dəqiqliyi ilə tapmışdı. Sənəddə iqtisadi layihələr, hüquqi bazanın formalaşdırılması, kadrlardan düzgün istifadə, eləcə də müharibəyə son qoymaqla bağlı atılacaq addımlar qeyd olunmuşdu. Amma bunları yerinə yetirəcək liderə ehtiyac var idi. 1992-ci ildə heç kim bunları yerinə yetirə bilmədi. Ulu Öndər bu çətin missiyanı yenə də öz üzərinə götürərək Azərbaycanı bəlalardan qurtardı”. Bu gün Azərbaycanın dünyaya müasir ölkə kimi təqdim olunduğunu deyən “Səs” Media Qrupunun rəhbəri qeyd edib ki, 2015-ci ildə I Avropa Oyunlarının keçirilməsi ilə Azərbaycan Avropaya yeni standartlar nümayiş etdirməklə yanaşı, dünyəvi ölkə olduğunu ortaya qoydu: “Bu il isə IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi Azərbaycanın dünyəvi dövlət olmasına baxmayaraq, öz kökünə, müsəlmançılığa sadiqliyini göstərdi. Yaşasın Müstəqil Azərbaycan!”.

Tədbirin sonunda çıxış edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov vurğulayıb ki, bu gün müstəqilliyimizin ayaqda durmasının əsas səbəbkarı Ulu Öndərdir: “Məhz o çətin dövrdən sonra Ümummilli Liderin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizin inkişaf etməsi və hazırda bu siyasətin uğurlu davamı Azərbaycanın işıqlı gələcəyini göstərir. Bu gün ölkəmizdə bütün sahələrdə islahatlar keçirilir və bizim universitetimizdə bu sahədə ciddi işlər görülür. Ali məktəbimizdə təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb. Pedaqoji heyət tamamilə yenilənib. Biz bu işləri görərək Ulu Öndərin xatirəsi qarşısında öz üzərimizə düşən vəzifələri yerinə yetirmiş oluruq. Hər kəsi qarşıdan gələn Milli Qurtuluş Günü münasibətilə təbrik edirəm. Əminəm ki, biz bu günü işğal olunmuş torpaqlarda qeyd edəcəyik”. Tədbir digər çıxışlarla davam edib.

***Nailə Məhərrəmova***

# Azərbaycan və Bolqarıstan hüquqi sahədə səmərəli əməkdaşlıq edir



İyunun 12-də ədliyyə naziri Fikrət Məmmədov respublikamızda səfərdə olan Bolqarıstanın baş prokuroru Sotir Tsatsarovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və Bolqarıstan arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, bu əlaqələrin dərinləşməsində dövlət başçılarının xüsusi rolu və qarşılıqlı səfərlərin mühüm əhəmiyyəti vurğulanıb. Həmçinin ölkələrimizin zəngin müqavilə bazasına söykənən hüquqi sahədə əməkdaşlığına toxunularaq qarşılıqlı fəaliyyətin perspektivləri, hər iki dövlətdə məhkəmə-hüquq sistemində aparılan islahatlar barədə fikir mübadiləsi aparılıb.

Nazir 2012-ci ildə Bolqarıstana edilmiş ikitərəfli məhsuldar səfərini və keçirilmiş görüşlərini, ötən il isə Sofiyada Avropa ədliyyə nazirlərinin konfransında iştirakını xatırladıb, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi, Məhkəmə-Hüquq Şurasının fəaliyyəti, məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmləndirilməsi baxımından Şuranın səlahiyyətlərinin genişləndirilməsi, hakimlərin ən şəffaf seçimi və tədrisi, elektron məhkəmənin tətbiqi, infrastrukturun müasirləşdirilməsi üzrə görülən tədbirlər barədə məlumat verib.

Ölkələrimiz arasında tarixi dostluq əlaqələrinin inkişafını qeyd edən qonaq Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək səfərin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını bildirib, Azərbaycan Prezidentinin siyasi iradəsi ilə respublikamızın, o cümlədən paytaxt Bakının sürətli tərəqqisini təqdir edib. S.Tsatsarov ölkəmizin məhkəmə-hüquq sistemindəki nailiyyətlərini maraqla qarşılayaraq, öz ölkəsində bu sahədə islahatların aparıldığını söyləyib, Azərbaycanın bir çox sahələrdə müsbət təcrübəsinin Bolqarıstan üçün faydasını vurğulayıb. Söhbət zamanı inzibati ədliyyənin fəaliyyəti, hakimliyə namizədlərin tədrisi, probasiya institutunun tətbiqi, korrupsiyaya qarşı mübarizə və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub. Tədbirdə Bolqarıstanın Azərbaycandakı səfiri Maya Xristova, ölkəmizin Bolqarıstandakı səfiri Nərgiz Qurbanova, ədliyyə nazirinin müavini Azər Cəfərov, baş prokurorun müavini, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev iştirak ediblər. Qonaqlar nazirlikdə Ədliyyə Tarixi Muzeyi ilə tanış olublar.

# Dövlət Sərhəd Xidməti Akademiyasının yaradılmasının 10-cu ildönümü münasibətilə tədbir keçirilib



Dünən Dövlət Sərhəd Xidməti Akademiyasının yaradılmasının 10-cu ildönümü münasibətilə tədbir keçirilmişdir. Dövlət Himni oxunduqdan sonra Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin təbrik teleqramı kursant və müəllim heyətinə çatdırılmışdır. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 12 iyun 2007-ci il tarixli Sərəncamı ilə yaradılan Dövlət Sərhəd Xidməti Akademiyasının ölkəmizdə xüsusi ixtisaslı, ali təhsilli sərhədçi zabitlərin hazırlanması, hərbi qulluqçuların peşə hazırlığının təkmilləşdirilməsi, elmi-tədqiqat işlərinin aparılması kimi mühüm vəzifələri uğurla yerinə yetirdiyi qeyd edilmişdir. Dövlət Sərhəd Xidmətinin Akademiyasında güclü elmi-tədris bazası və yüksək ixtisaslı hərbi-pedaqoji heyətin formalaşdığı, peşəkar sərhədçi kadrların hazırlanması üçün ən yüksək standartlara cavab verən şəraitin yaradıldığı, akademiyanın ötən müddət ərzində böyük inkişaf yolu keçərək, beynəlxalq səviyyəli tədris mərkəzinə çevrildiyi vurğulanmışdır. Çıxış edənlər Dövlət Sərhəd Xidməti Akademiyasının 10 illik yubiley mərasiminin həm də ölkəmizdə IV İslam Həmrəyliyi Oyunlarının qələbə təntənəsinin yaşandığı vaxta və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin Dövlət Sərhəd Xidmətinin fəaliyyəti ilə bağlı 5 iyun 2017-ci ildə tarixi fərmanların imzalandığı ərəfəyə təsadüf etməsini əlamətdar hal kimi qeyd etmişlər. Tədbirdə xidmətdə yüksək nəticələr göstərmiş bir qrup hərbi qulluqçu təltif edilmişdir.



Mərasimin sonunda şəxsi heyət orkestrin sədaları altında sıra addımları ilə tribuna önündən keçmiş və Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestrinin hazırladığı maraqlı konsert proqramı tədbir iştirakçılarına təqdim edilmişdir.

***Rövşən***

# Yeni Azərbaycan Partiyası özünün tarixi missiyasını uğurla yerinə yetirir

## *YAP Kürdəmir rayon təşkilatının X konfransı keçirilib*

***Yeni Azərbaycan Partiyası Kürdəmir rayon təşkilatının X konfransı keçirilib. Konfrans nümayəndələri ilk öncə Azərbaycan xalqının Dahi Lideri, partiyanın qurucusu Heydər Əliyevin abidəsini ziyarət etmiş, abidənin önünə tər gül dəstələri düzmüş, Ona hörmət və ehtiramlarını ifadə etmişlər.***






Konfrans rayon Heydər Əliyev Mərkəzində Dövlət Himninin səsləndirilməsi ilə öz işinə başlamışdır. Konfransda YAP Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, Azərbaycan xalqının ciddi sınaqlarla üzləşdiyi bir dövrdə Ümummilli Lider Heydər Əliyevin müdrik düşüncəsi ilə yaradılmış Yeni Azərbaycan Partiyası özünün tarixi missiyasını davam etdirərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətənimizin tərəqqisi naminə həyata keçirilən fəaliyyətin ideya-siyasi təminatçısı rolunu müvəffəqiyyətlə yerinə yetirir.

A.Kərimli onu da qeyd etmişdir ki, 17 iyul 1993-cü ildə təsis edilmiş Yeni Azərbaycan Partiyasının ilkin, çoxsaylı, mübariz dəstələrindən biri olan və artıq mükəmməl formalaşmış Kürdəmir rayon təşkilatı hesabat dövründə öz işini partiya Nizamnaməsinə, Qurultay qərarlarına, YAP İdarə Heyətinin, Siyasi Şuranın qərar və göstərişlərinə, partiya rəhbərinin tapşırıq və tövsiyələrinə uyğun qurmaq üçün ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirmişdir: "Hazırda rayon təşkilatında partiya üzvlərinin sayı 9080 nəfərdir ki, bunların 4034 nəfəri, yəni 44,4 faizi gənclər, 3340 nəfəri, yəni 36,7 faizi qadınlardır. Hesabat dövrünü əhatə edən müddətdə 2621 nəfər partiya sıralarına qəbul olunmuşdur. Bunlardan 893 nəfər qadınlar, 1190 nəfər gənclərdir. Seçkili orqanların işinin düzgün təşkili, iclaslarının vaxtlı-vaxtında və hazırlıqlı keçirilməsi, günün vacib məsələlərinə aid düşünülmüş qərarların qəbulu və onların icrasının təmin olunması daim diqqət mərkəzində saxlanılmışdır".

Konfrans YAP Kürdəmir rayon təşkilatının nəzarət-təftiş qrupunun sədri Həsən Hidayətovun hesabat məruzəsini də dinləmişdir. Məruzələr ətrafında rayon təşkilatının idarə heyətinin üzvü, rayon təşkilatı qadınlar şurasının sədr müavini Elmira Şıxəliyeva, rayon Ziyalılar Cəmiyyətinin sədri, poliklinika ərazi ilk partiya təşkilatının sədri Sabir Novruzov və Carlı kənd tam orta məktəbinin direktor müavini Abdüləziz Hüseynov çıxış etmişlər.

Konfransda YAP Siyasi Şurasının üzvü, Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev, Kürdəmir rayon icra hakimiyyətinin başçısı Ceyhun Cəfərov çıxış edərək, konfrans iştirakçılarını əlamətdar gün münasibətilə təbrik etmiş, Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, Azərbaycanın inkişafı və tərəqqisində partiyanın rolundan, ölkəmizdə mövcud ictimai-siyasi vəziyyət və möhtərəm Prezidentimiz, YAP-ın Sədri Cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düşünülmüş və dəqiq siyasətdən bəhs etmiş, partiyanın qarşısında duran vəzifələr barədə ətraflı məlumat vermişlər.

Konfransın qətnaməsi oxunaraq təsdiq edilib, təşkilati məsələlər müzakirə olunub.YAP Kürdəmir rayon təşkilatının 51 nəfərdən ibarət şurası, 21 nəfərdən ibarət idarə heyəti və 7 nəfərdən ibarət nəzarət-təftiş qrupu seçilmişdir. Ağali Kərimli yenidən YAP Kürdəmir rayon təşkilatının sədri seçilmişdir. Sonda YAP üzvlüyünə yeni qəbul olunmuş bir qrup gəncə partiya üzvlük vəsiqələri təqdim edilmişdir.

***Rəfiqə***

# Rusiyada yol qəzasında 11 nəfər həlak oldu

Rusiyanın Zabaykalye bölgəsində ağır yol qəzası baş verib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, sərnişin avtobusunun aşması nəticəsində baş verən qəzada 11 nəfər həyatını itirib. Hadisə dünən axşam saatlarında Baykal federal avtomobil magistralında qeydə alınıb. Avtobusda 50-dən çox sərnişin olub. Sərnişinlərin, demək olar, hamısı müxtəlif bədən xəsarətləri alıb. Hazırda qəzanın başvermə səbəbləri müəyyənləşdirilir.

# Heydər Əliyev - xilaskarlıq missiyasının ali dəyəri

***Hər bir xalqın tarixini onun dahi insanları yaradır. Azərbaycanın müasir tarixinin 30 ildən çox davam edən və öz miqyasına görə əsrə bərabər olan böyük bir dövrü bilavasitə dünya səviyyəli siyasətçi və dövlət xadimi, zamanəmizin əzəmətli və bənzərsiz şəxsiyyəti, Ümummilli Liderimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Heydər Əliyevin xalqımızın çoxəsrlik dövlətçilik tarixində və taleyində ən möhtəşəm xidmətlərindən biri 1993-cü ilin iyununda Azərbaycanın və xalqımızın başının üstünü almış bütün bəlalardan qoruması, müstəqilliymizi əbədi bəlalardan qoruması və müstəqilliyimizi əbədi etməsidir.***

Məhz həmin keşməkeşli iyun günlərində ölkə dərin siyasi və iqtisadi böhran içində çapalayırdı. Yeni əldə edilmiş müstəqilliyimiz məhv olmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdı. Yararsız və naşı AXC-Müsavat iqtidarı ölkəmizdə baş verən bütün ağır məsələlərin təşkilatçıları və günahkarları qismində qaçmaqları barədə düşünürdülər. Daxili-xarici düşmənlər Azərbaycanın parçalanmış xəritəsini cızaraq, öz mənfur planlarını reallaşdırmaq ərəfəsində idilər.

## Qısa bir zamanda sosial-siyasi və iqtisadi tənəzzülün qarşısını alan Heydər Əliyev



*Muxtar NAĞIYEV,*
*YAP Səbail rayon təşkilatının sədr müavini*



## respublikanın davamlı inkişafı istiqamətində islahatlar həyata keçirdi

Belə bir taleyüklü məqamda xalqımız öz böyük oğlu Heydər Əliyevə müraciət edərək, Onu təkidlə Azərbaycanda hakimiyyətə çağırdı. Ulu Öndər Heydər Əliyev xalqının ağır günündə onun taleyinə biganə qala bilməyərək, Naxçıvandan Bakıya gəldi. Xilaskarlıq missiyası ilə möhtəşəm qayıdışa imza atan Ulu Öndər Heydər Əliyev ölkədə baş alıb gedən özbaşınalığın, xaosun, dövlət çevrilişi cəhdlərinin qarşısını aldı, qanunsuz fəaliyyət göstərən silahlı dəstələr zərərsizləşdirildi və bununla da, ölkədə sabitlik bərqərar oldu. Qısa bir zamanda sosial-siyasi və iqtisadi tənəzzülün qarşısını alan Heydər Əliyev respublikanın davamlı inkişafı istiqamətində islahatlar həyata keçirdi.

Azərbaycanın demokratiya yolunda qısa vaxt ərzində əldə etdiyi nailiyyətlər bu gün dünyanın aparıcı dövlətləri və nüfuzlu beynəlxalq təşkilatları tərəfindən də yüksək qiymətləndirilir. Ölkəmiz Avropa Şurasının, UNESKO, MDB, QİƏT, İKT, GUAM-ın, Dünya Sülh Şurasının, Beynəlxalq Valyuta Fondunun Dünya Bankının, Beynəlxalq Bərpa və İnkişaf Bankının, habelə, çoxlu sayda beynəlxalq və məhəlli təşkilatların, birliklərin və konvensiyaların fəal üzvüdür. NATO və Avropa İttifaqı ilə tərəfdaşlıq edir.

Vaxtilə Azərbaycan gənclərinin keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərində təhsil almaq üçün imkanlar yaratmış Ümummilli Lider yaxşı bilirdi ki, onlar yaxın gələcəkdə Azərbaycanın ayrı-ayrı sahələrinin inkişıf üçün kadr potensialıdırlar. Ona görə də təkcə istehsalat, xidmət və iqtisadiyyat sahəsində siyasət aləmi üçün də Azərbaycana yeni nəslin nümayəndələri lazım idi, həm də müstəqil düşünməyi və mübarizə aparmağı bacaran və özünü gələcəyə hazırlamağı qarşısına məqsəd qoyan gənclərə daha çox üstünlük verilirdi.

## Heydər Əliyevin siyasi uzaqgörənliyinin və siyasi iradəsinin məntiqi nəticəsi

Beləliklə, 1993-1995-ci illər müasir Azərbaycanın tarixinə dövlət müstəqilliyinin qorunub-saxlanması, dünya iqtisadiyyatına inteqrasiya dövrü kimi yazıldı. 1995-ci ilin 12 noyabrında müstəqil Azərbaycanın ilk Konstitusiyası ümumxalq referendumu ilə qəbul olundu. Əsas Qanunda xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, dövlətin demokratik-hüquqi və dünyəviliyi, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunmasının təməl prinsipləri təsbit olunmuş, insan hüquq və azadlıqlarının təmini dövlətin ali məqsədi kimi ön plana çəkilmişdir. Azərbaycanın ilk Milli Konstitusiyasında mənəvi sərvətlərimizə, dinimizə, tarixi irsimizə qayğı dövlət səviyyəsinə qaldırıldı. Başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, demokratiya və dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni ideologiyanın əsası qoyuldu. Ulu Öndərimiz bəyan etmişdi: "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcək".

Ümummilli Liderimiz Heydər Əliyevin siyasi uzaqgörənliyinin və siyasi iradəsinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilməsi ölkənin bütün strateji əhəmiyyətli sahələrinin dinamik inkişafına güclü təkan verdi.

Nəhəng dövlətçilik təcrübəsi və idarəçilik qabiliyyəti ilə səciyyələnən siyasi fəaliyyəti bu böyük şəxsiyyəti dünya şöhrətli siyasi xadim kimi tanıtmışdır. O, nəinki öz xalqının sevimlisi olmuş, eyni zamanda, dünyanın böyük dövlət başçılarının, tanınmış siyasi xadimlərin də hörmət və məhəbbətini qazanmışdır. Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəl Ulu Öndərimizin həyat və fəaliyyətini belə qiymətləndirmişdir: "Heydər Əliyev Azərbaycanı israrla və demokratik yollarla müstəqil olaraq məqsədinə çatdırmaq üçün canını sipər edib qeyrət göstərən oğuldur". Türkiyənin keçmiş baş naziri, hazırkı dövlət başçısı Rəcəb Tayyib Ərdoğan isə vurğulamışdır: "Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi. "Bir millət, iki dövlət" sözü ona məxsusdur". Böyük Britaniyanın sabiq baş naziri Toni Bleyer Heydər Əliyev haqqında danışarkən demişdir: "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı Onun qoyduğu irs ilə fəxr edə bilər".

Rusiya, ABŞ, Gürcüstan, Ukrayna, Qazaxıstan və digər xarici ölkələrin tanınmış dövlət və ictimai-siyasi xadimləri də Heydər Əliyevi dahi şəxsiyyət, dünya səviyyəli siyasətçi kimi qiymətləndirmişlər. Bu, əsl liderə, əsl dövlət xadiminə verilən ən yüksək qiymət və ehtiramın təcəssümü kimi göstərilə bilər.

## Prezident İlham Əliyev: "Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətimizin tarixində müstəsna yeri vardır"

Ulu Öndərin öz xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri müəyyənləşdirdiyi milli inkişaf kursunu inamla davam etirə biləcək siyasi varis yetişdirməsidir. Böyük Öndər 2003-cü ildə xalq ünvanladığı tarixi müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən, ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Azərbaycan Prezidenti Cənab İlham Əliyev ona olan bu ümidləri layiqincə doğrultdu. Heydər Əliyevin müəyyənləşdirdiyi milli inkişaf kursunu müasir dövrün tələblərinə uyğun şəkildə böyük inamla, əzmkarlıqla aparan ölkə başçısının rəhbərliyi altında Azərbaycan bu gün dünya birliyində özünə layiqli yer tutub, iqtisadiyyatın artım tempinə görə dünyada lider mövqedə dayanıb. Azərbaycan Prezidenti İlham Əliyevin Ümummilli Liderimiz haqqında dediyi tarixi kəlamları bu gün də hər birimizdə qürur doğurmaqdadır: "Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətimizin tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində, Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək, Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir".

Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan nəhəng işlər və mühüm tədbirlər həyata keçirilir. Uğurla həyata keçirilən genişmiqyaslı islahatlar müstəqilliyimizi dönməz və əbədi edib. Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "İndiki müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır, möhkəmlənir və yeni formalarla zənginləşir".

Bəli, Azərbaycan xalqı bu tarixi unutmur və bu gün Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, ölkə başçımız Cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasətini dəstəkləyir. Xalqımız Azərbaycan Respublikasının Prezidenti seçməklə həm öz Liderinə qədirbilənliklə vəfa borcunu göstərmiş, həm də Heydər Əliyev yolu ilə gələcəyə doğru getməkdə qətiyyətli olduğunu sübut etmişdir.

# Qaranquşlar Cocuq Mərcanlıda yuva qurur

## *Prezidentin Sərəncamı ilə qısa müddətdə bərpa olunmuş Cocuq Mərcanlı kəndi sakinlərini qarşılamağa hazırlaşır*

***Avtomobilimiz yeni çəkilmiş asfalt yolla şütüyür. Üz tutduğumuz ünvan bütün Azərbaycanın diqqət mərkəzində olan Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndidir. Bu, bizim Cocuq Mərcanlıya ilk səfərimiz deyil. Azərbaycan Ordusunun 2016-cı ilin uğurlu aprel döyüşlərindən sonra kənddə aparılan geniş quruculuq işləri AZƏRTAC tərəfindən mütəmadi işıqlandırılıb. Azğın düşmənin xarabalığa çevirdiyi Cocuq Mərcanlı gözlərimiz önündə qısa bir zamanda bərpa olunaraq ikinci həyatına qovuşur. Bu, Qarabağa "Böyük qayıdış"ın ilk müjdəsidir.***






### Yolboyu uzanan taxıl zəmiləri və Lələtəpədə dalğalanan Azərbaycan bayrağı

Yolun kənarında həyat rəmzi olan sapsarı taxıl zəmiləri uzanır. Digər tərəfdə isə sıralanan yüksəkliklər - üzərində üçrəngli bayrağımız ucalan Lələtəpə yenicə həyata dönmüş Cocuq Mərcanlını sanki ana kimi bağrına basır. Yeni salınmış qəsəbənin giriş qapısından Cocuq Mərcanlıya daxil oluruq. Böyük yol nişanı diqqətimizi ilk baxışda cəlb edir. Burada Cocuq Mərcanlıdan işğal altındakı torpaqlarımıza - Cəbrayıla, Zəngilana, Qubadlıya, Laçına, Füzuliyə, Şuşaya, Xankəndinə qədər olan məsafə əksini tapıb. Qarşıda isə yeni qəsəbənin gözəl panoramı açılır.

Aldığımız məlumata görə, qəsəbədə aparılan tikinti işləri artıq yekunlaşıb. Prezident İlham Əliyevin Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı Sərəncamına əsasən tikilən qəsəbədə 50 evdən 20-si ikiotaqlı, 25-i üçotaqlı, 5-i isə dördotaqlıdır. Küçələrdə gecə işıqlandırma sistemi qurulub. Su, qaz, telefon xətləri çəkilib, 100 kubmetrlik su anbarı inşa edilib. Subartezian quyusu qazılıb. Qəsəbədaxili yollara və səkilərə asfalt örtüyü salınıb, yaşıllaşdırma işləri aparılıb. Həmçinin 35/10 kilovoltluq yeni yarımstansiya inşa edilib, komplekt transformator məntəqəsi, subartezian quyusuna xidmət edəcək transformator quraşdırılıb, 0,4 kilovoltluq şəbəkə yaradılıb. Növbəti mərhələdə isə 150 evin və digər infrastrukturun tikintisi və bərpası nəzərdə tutulur.

Qəsəbə yolunda rastlaşdığımız bir neçə nəfərlə həmsöhbət oluruq. Onlardan biri Gülizar Səfixanova sevinc göz yaşları içində deyir: "24 ildir doğma kəndimdən ayrı düşmüşəm. Axır ki, bu ayrılığa son qoyulur. Qəsəbə hələ sakinlərinə təhvil verilməsə də dözə bilməyib, Bakıdan bura baş çəkməyə gəldik. Bilmirəm bu evlərdən hansı bizim olacaq. Fərq etməz, əsas olan doğma torpağa qayıdışdır. Bu sevinci bizə bəxş edən dövlətimiz, Prezidentimiz var olsun".

### 80 yaşlı Minarə nənənin sevinci və arzusu

Cocuq Mərcanlıya hər səfərimizdə ötən illər ərzində kəndi tərk etməyən yeganə ailə - Həziyevlər ailəsinə baş çəkirik. Bu dəfə də ənənəmizə sadiq qaldıq. Ailə üzvləri bizi həmişəkindən daha yüksək əhval-ruhiyyə ilə qarşıladılar. Kəndin bərpası hamı kimi, ailənin ağbirçəyi - 80 yaşlı Minarə nənənin də böyük sevincinə səbəb olub: "23 ildən çoxdur burada tək yaşayırıq. Həmişə arzu edirdim ki, camaatımız, qonum-qonşumuz geri qayıtsın. Şükürlər olsun Allaha, arzuma çatdım. Tezliklə kəndimizin toy-büsatlı, xoş günləri yenidən başlayacaq. Bir də ki, bu yaşımda kəndimizdə azan səslənəcəyi günü səbirsizliklə gözləyirəm. Qəsəbəni qurub yaradanlara, məscidi tikənlərə Allahdan cansağlığı arzulayıram".

### Cocuq Mərcanlı kənd məktəbi 96 şagirdi qoynuna alacaq

Prezident İlham Əliyevin Sərəncamına əsasən Cocuq Mərcanlıda 96 şagird yerlik məktəb binası da inşa edilib. Məktəbin foyesində ümummilli lider Heydər Əliyevin büstü, dahi rəhbərin məcburi köçkünlərə diqqət və qayğısını əks etdirən fotostend quraşdırılıb. Dəhlizdə 2016-cı ilin aprel döyüşlərini, Cocuq Mərcanlının bərpadan əvvəlki və sonrakı görüntülərini, xarici jurnalistlərin və diplomatik nümayəndəliklərin kəndə səfərlərini əks etdirən fotolardan ibarət stendlər yer alıb. Məktəb binası lazımi inventar və avadanlıqlarla, istilik sistemi və internetlə təchiz edilib. Həyətdə voleybol və basketbol meydançaları yaradılıb, yaşıllıq salınıb.

Cocuq Mərcanlı kənd sakini Siyasət Məmişova yeni dərs ilində qəsəbədə inşa edilən məktəbdə müəllim işləyəcək. Siyasət müəllimə sevincini AZƏRTAC-ın müxbiri ilə bölüşərək deyir: "Qəsəbədə yaraşıqlı evlər, müasir məktəb binası inşa edilib. Mənim payıma isə ikiqat sevinc düşür. Çünki qəsəbədə həm evlə təmin olunacam, həm də müasir, gözəl məktəbdə dərs deyəcəm. Uzun illərdən sonra kəndimizin uşaqları nəhayət öz məktəbimizdə təhsil alacaqlar". Səkkizinci sinif şagirdi Azad Mirzəliyev qonşu kənddə - Füzulinin Qazaxlar kəndində yaşayır. O, ata yurdu olan Cocuq Mərcanlıya hər gün baş çəkir, yeni məktəbə gedəcəyi günü səbirsizliklə gözləyir. Deyir ki, doğma kəndin bərpa olunmasına çox sevinir. Bura köçəcəkləri, kənd uşaqları ilə bir məktəbdə oxuyacağı günün həsrətindədir.

### Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri üç aydan da tez tikilib

Dövlətimizin başçısının tapşırığına əsasən, qəsəbədə Şuşa məscidinin bənzəri də inşa edilib. Bu, işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesajdır: Azərbaycanın İslam dünyasının bir parçası olduğunu, tarixi keçmişinə sadiqliyini nümayiş etdirir. Biz Cocuq Mərcanlıda Şuşa məscidinin bənzərini yaratdıq. Gün gələcək, Şuşa da işğaldan azad olunacaq, Şuşa məscidi də bərpa ediləcək. Ərazisi 50 sot olan məscidin tikinti sahəsi 556 kvadratmetr, minarələrin hündürlüyü 26 metrdir. Bu barədə məlumat verən iş icraçısı İsmayıl Ağabəyov bildirir ki, məscidin inşası qısa vaxtda və yüksək keyfiyyətlə başa çatdırılıb: "Eşidəndə ki, Cocuq Mərcanlıya tikintidə çalışmağa gedirik, briqadamızın üzvləri çox sevindilər. İnşaat işlərinə martın 22-də başladıq. Hamı böyük ruh yüksəkliyi ilə işlədi və tikintini vaxtında tamamladıq. Ən böyük arzumuz odur ki, bütün torpaqlarımız azad edilsin, Ağdamda, Şuşada və digər şəhər və kəndlərimizdə məscidləri bərpa edək".

### Cocuq Mərcanlının ilk taxılı və qaranquş yuvaları

Ötən ilin aprel ayında Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatları nəticəsində Lələtəpə yüksəkliyinin işğaldan azad olunması təmas xəttinə yaxın ərazilərdə yüzlərlə hektar sahənin əkin dövriyyəsinə cəlb edilməsinə imkan yaradıb. İndi Cocuq Mərcanlı sakinləri kəndin ətraf ərazilərində təhlükəsiz şəraitdə əkin-biçinlə məşğul ola bilirlər. Biz Cocuq Mərcanlıda olanda kənd sakini Arif Həziyev becərdiyi taxılı biçirdi. "Əvvəllər bu ərazilər çox təhlükəli idi. Lələtəpə yüksəkliyi işğaldan azad edildikdən sonra artıq təsərrüfatda rahat işləyə bilirik. Gördüyünüz kimi, ötən ilin payızında əkdiyimiz arpanı biçirik. Məhsulumuz boldur", - deyə A.Həziyev bildirir. Cocuq Mərcanlıdan geri dönərkən evlərdən birinin eyvanındakı divarda yuvasına qonmuş qaranquş gördük. Bunu təsadüf yox, qanunauyğunluq hesab etdik. Qaranquşun gəlişi həyat əlaməti, qarşıdakı xoş günlərin müjdəsidir.

***Tahir Ağaməmmədov***
***AZƏRTAC-ın müxbiri***

## MTK- ların yeni binalardan pul yığması qanuna uyğundurmu?

"Mənzil-Tikinti Kooperativlərinin (MTK) əksəriyyəti heç bir iqtisadi səbəb olmadan "kommunal pulu" adlandırdıqları aylıq ödənişlərin məbləğlərini son günlər daha da artırıblar. Bu isə bir sıra yeni inşa edilmiş yaşayış binalarında sakinlər ilə MTK sahibləri arasında narazılığa səbəb olub". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Vüqar Bayramov deyib. Onun sözlərinə görə, hətta bəzi MTK sahibləri "bir az da uzağa gedərək" hər evin kvadrat metri üçün aylıq 1 manat 50 qəpik ödəniş təyin ediblər: "Bu isə o deməkdir ki, 130 kvadrat metrlik 3 otaqlı mənzil sahibi ayda 200 manata yaxın "kommunal pulu" ödəməlidir. Əsaslandırılması mümkün olmayan ödəniş məbləğidir. Əvvəla, ortaya belə bir sual çıxır ki, MTK-lar bu məbləğdə ödəniş tələb edə bilərlərmi? Qanunvericilik nə deyir? Birmənalı şəkildə, MTK sahibləri "havadan götürülmüş rəqəmlərə" söykənib aylıq ödəniş tələb edə bilməzlər. Ümumiyyətlə, MTK sahibləri ayrıca, yəni sakinlərin və ya onların təmsilçilərinin razılığı olmadan sərbəst şəkildə aylıq ödəniş məbləğini müəyyənləşdirmək hüququna malik deyillər. Mənzil Məcəlləsinin 109.5-ci maddəsində qeyd edilir ki, "kooperativ binanın tikintisi və yenidən qurulması tam başa çatdıqdan, həmin binada mövcud olan bütün yaşayış və qeyri-yaşayış sahələrinə mülkiyyət hüququ qanunvericilikdə müəyyən olunmuş qaydada mənzil-tikinti kooperativinin üzvlərinə keçdikdən sonra, altı ay ərzində mənzil-tikinti kooperativi qanunvericiliklə müəyyən olunmuş qaydada ləğv edilməli və ya mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə çevrilməlidir.



Elə həmin məcəlləyə əsasən, "yeni binalarda daşınmaz əmlak kompleksini birgə idarə etmək, çoxmənzilli binanın ümumi əmlakının istismarını, ona sahibliyi, ondan istifadəni və qanunvericiliklə müəyyənləşdirilmiş hədlərdə barəsində sərəncam verilməsini təmin etmək məqsədilə çoxmənzilli binanın sahə mülkiyyətçilərinin könüllü birliyi mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti hesab edilir". Bu isə o deməkdir ki, bina istifadəyə verildikdən 6 ay sonra idarəetmədə həmin tikilidəki mənzil sahibləri də iştirak etməlidirlər. Təəssüf ki, bu qaydalar təhvil alınmış, yəni dövlət qeydiyyatı olan binalara aid hesab edildiyindən, "kupçasız binalar" bu şərtləri çox əksər hallarda pozurlar. Daha konkret, aylıq ödənişlərə gəldikdə isə, mövcud qanunvericiliyə əsasən, dövlət mənzil fondu üzrə yaşayış sahələrinə görə haqqın miqdarı özəl mənzil fondu üzrə isə mənzil mülkiyyətçiləri müştərək cəmiyyəti və ya ixtisaslaşmış istehlak kooperativi tərəfindən müəyyən olunur. Yəni, MTK sahibləri bina sakinlərinin razılaşmadığı aylıq ödəniş məbləği təyin edə bilməzlər. Amma problem ondadır ki, indiyədək cəmi 43 Mənzil Mülkiyyətçiləri Müştərək Cəmiyyəti qeydiyyatdan keçib. Deməli, böyük əksəriyyət binalarda belə cəmiyyətlər fəaliyyət göstərmir. Və deməli, əksər MTK sahibləri özləri şişirdilmiş aylıq ödənişlər müəyyənləşdirirlər.

Problemi həll etmək üçün, daha məqsədəuyğunu kommunal xidmətlər ilə təmin edilmiş və tam yaşayışlı binalar daha sadə şərtlər ilə dövlət qeydiyyatına alınıb, "kupça" ilə təmin olunsunlar ki, sözügedən tikililərdə belə cəmiyyətləri formalaşdırmaq mümkün olsun. Bununla belə, qanunvericilik ilə kommunal xidmətlər ilə təmin edilmiş, amma hələlik dövlət qeydiyyatına alınmayan binalar üçün də Mənzil Mülkiyyətçiləri Müştərək Cəmiyyətlərinin yaradılması məcburi hala gətirilə bilər. Digər tərəfdən, əksər MTK sahiblərinin yüksək aylıq ödənişlər müəyyənləşdirildiyini nəzərə alsaq o zaman Nazirlər Kabineti tərəfindən maksimum aylıq ödənişlərinin tətbiq edilməsi məqsədə uyğun olardı. Bu zaman, MTK sahibləri istədikləri rəqəmi aylıq ödəniş kimi elan edə biməyəcəklər. Bütün hallarda, aylıq ödənişlərin əhalinin ödəmə qabiliyyətinə uyğunlaşdırılmasına ehtiyac var və deməli, aylıq haqların müəyyənləşdirilməsinə nəzarətin gücləndirilməsi olduqca vacibdir. Hüquqi baza və nəzarəti gücləndirməklə bir sıra MTK sahiblərinin müəyyənləşdirdiyi şişirdilmiş aylıq ödəniş problemini həll etmək mümkündür".

***Ruqiyyə Nəcəfzadə***

# Azərbaycan Həmkarlar İttifaqları Ulu Öndərin ideyalarına həmişə sadiqdir

## Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti, Milli Məclisin deputatı Səttar Möhbalıyevin yap.org.az-a müsahibəsi

***- Səttar müəllim, bu günlərdə ölkəmizin hər yerində 15 İyun - Milli Qurtuluş Günü qeyd olunur. Siz Milli Qurtuluş Gününün Azərbaycan dövlətçiliyinin tarixində yeri və əhəmiyyəti haqqında nə deyə bilərsiniz?***



- Xalqımızın müstəqillik tarixində müstəsna yeri olan 15 İyun - Milli Qurtuluş Günü ilə ölkəmizin həyatında yeni dövr başlanmış, dövlətçiliyimizin möhkəmlənməsi, müstəqilliyimizin dönməz və əbədi olması üçün mühüm və səmərəli fəaliyyətin əsası qoyulmuşdur. Xalqımızın tarixi yaddaşına əbədi həkk olunmuş qurtuluş günü ölkəmizin hər yerində dahi lider, ölməz şəxsiyyət Heydər Əliyevə dərin hörmət və məhəbbətlə, Onun xalqa göstərdiyi təmənnasız və fədakar xidmətinə böyük minnətdarlıq hissi ilə qeyd olunur.

Böyük bir imperiyanın çökməsi səbəbindən XX əsrin sonlarına doğru yenidən müstəqillik qazanmaq kimi tarixi fürsət əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Həmin dövrdə hakimiyyəti ələ keçirmiş səriştəsiz insanların xəyanətkar əməllərinin məntiqi nəticəsi olan hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatmışdı. Xaos və anarxiya ölkəni bürümüşdü. Qarşıdurma vətəndaş müharibəsi dərəcəsinə yüksəlmişdi.

Belə bir dövrdə əsrlər boyu arzulanan güclü Azərbaycan dövlətini qurmaq, xalqımızı problemlər məngənəsindən xilas etmək kimi tarixi missiyanı yalnız Heydər Əliyev yerinə yetirməyə qadir idi. Bunu xalq yaxşı bilirdi. Ona görə də təkidlə öz böyük xilaskarını ikinci dəfə, yəni iyunun 15-də hakimiyyətə qaytardı. Bununla da xalqımız müstəqilliyimizi məhv olmaq təhlükəsindən birdəfəlik xilas etdi.

Heydər Əliyevin qayıdışı ilə hakimiyyətsizliyə son qoyuldu, separatçı qüvvələr zərərsizləşdirildi, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qəsdlər hazırlayan cinayətkar ünsürlər cəmiyyətdən tədric edildi, nizami silahlı qüvvələr yaradıldı, dövlətin və xalqın maraqlarına cavab verən iqtisadi sistem quruldu. Vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri elan edildi. Demokratik islahatlar kursunun həyata keçirilməsinə başlanıldı, ölkəmizdə tarixən mövcud olmuş tolerantlıq mühiti daha da möhkəmləndirildi. Beləliklə, ulu öndər Heydər Əliyevin sayəsində Azərbaycanın dövlət müstəqilliyi faktiki təmin olundu.

Ümummilli liderin əsasını qoyduğu iqtisadi, sosial islahatlar onun layiqli davamçısı İlham Əliyev tərəfindən müasir sivilizasiyanın tələbləri səviyyəsində davam etdirildi. Deyirlər görünən dağa nə bələdçi. Ümummilli liderin bizə miras qoyduğu müstəqil dövlətimizin uğurları göz qabağındadır. İqtisadi artıma, sosial duruma görə regionda liderik. Mədəniyyətimiz, idmanımız yaxın, uzaq ölkələrdə brendə çevrilib. Paytaxtımız Avropanın, Asiyanın ən gözəl meqapolisləri cərgəsindədir. Bölgələrimiz abadlaşır. Azərbaycan turizm məkanına çevrilməkdədir.

Artıq vətəndaş cəmiyyəti formalaşması prosesi başa çatmaqda, demokratik proseslər, mətbuat, söz azadlığı irəliləməkdədir.

***-Məqalələrinizdə, çıxışlarınızda dəfələrlə xatırladırsınız ki, Ulu öndərin qayıdışı ilə Azərbaycan həmkarlar ittifaqlarının da həyatında tarixi dönüş oldu. Bu fikrin davamı kimi nə demək istərdiniz?***

- Ümumiyyətlə, həmkarlar ittifaqları hər zaman ümummilli liderin qayğısını öz üzərində hiss edib. Azərbaycan həmkarlar ittifaqları ümummilli lider Heydər Əliyevin diqqət və qayğısını yüksək qiymətləndirib. Ölkəmizdə ilk dəfə məhz həmkarlar ittifaqları özünün I və II qurultaylarında ümummilli liderin prezidentliyə namizədliyini irəli sürmüşdü.

Xatırladım ki, 1993-cü ilin yayında respublikada vəziyyət gərgin olaraq qalırdı. İyunun 4-də baş vermiş hadisələr vəziyyəti daha da pisləşdirmişdi. Ölkəmiz parcalanmaq, dövlətimiz məhv olmaq üzrə idi. Belə bir təhlükə həmkarlar ittifaqının da başının üstünü almışdı. Heydər Əliyev bu təhlükənin qarşısını qansız-qadasız aldı. Bu işdə həmkarlar iittifaqları da ümummilli liderin yanında oldu.

1993-cü ildə Azərbaycanın cənub bölgəsində gərgin vəziyyət yaranmışdı. Heydər Əliyevin respublikanın bütövlüyünü, dövlətçiliyini qorumaq sahəsində yeritdiyi siyasəti müdafiə edən AHİK-in "Azərbaycan Respublikasının cənub regionunda yaranmış ictimai-siyasi vəziyyətlə əlaqədar bəyanat"ında deyilirdi: "AHİK, bu çoxsaylı təşkilatın minlərlə üzvü respublikanın cənubunda gedən hadisələri böyük təşviş və həyəcan hissi ilə izləyir. Qeyd edirik ki, son vaxtlar Azərbaycanda bir sıra qüvvələr öz siyasi məqsədlərini həyata keçirmək üçün vətəndaşların sosial-iqtisadi hüquqlarını qorumaq bəhanəsi altında millətçi, separatçı hərəkata başlamışlar. Azərbaycan həmkarlar ittifaqları birmənalı qeyd edir ki, bu cür hərəkat siyasi avantüralardan başqa bir şey olmayıb, vətəndaşların sosial-iqtisadi hüquqlarının daha da pozulmasına, Azərbaycanda həmkarlar ittifaqları qüvvələrinin parçalanmasına, zəhmətkeşləri öz haqlı tələblərini müdafiə etmək yolundan yayındırmağa aparır.

Bu gün belə avantürist ideyaların ortaya atılması yalnız xalqın parçalanmasına, böhranın dərinləşməsinə, hərbi uğursuzluqların davam etməsinə, ən başlıcası isə respublikanın qardaş xalqları arasında milli münasibətlərin pozulmasına xidmət edir. Azərbaycan zəhmətkeşlərini sayıq olmağa, siyasi oyunçuların əlində alət olmağa yol verməməyə çağırırıq".

1994-cü il fevralın 24-də "Həmkarlar ittifaqları haqqında" qanun qəbul edilmişdir. Bu qanun Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən təsdiq edilmişdir. "Həmkarlar ittifaqları haqqında" qanunun qəbul edilməsi təşkilatımızın səmərəli fəaliyyət göstərməsi üçün hüquqi baza yaradılmasını təmin etdi. Bu qanun öz dəyərinə, məzmununa görə təkcə ölkə daxilində deyil, hətta MDB məkanında bir çoxlarına demokratiyanı sözdə yox, işdə dəstəkləməyin parlaq nümunəsi oldu. Heydər Əliyevin Prezidentliyi illərində əməkçilərin sosial müdafiəsinə yönəlmiş çoxsaylı digər hüquqi-normativ aktlar qəbul olundu. Beynəlxalq Əmək Təşkilatının əsas konvensiyaları Milli Məclisdə ratifikasiya edildi.

Hamıya məlumdur ki, ümummilli liderin 1994-cü il 5 oktyabr dövlət çevrilişi cəhdləri ilə bağlı xalqa müraciətinə AHİK həmrəyliklə cavab vermişdi. Bu hadisələrlə bağlı "Dövlətçiliyimizi qorumaq naminə" adlı müraciət qəbul edilmişdi. Müraciətdə respublikanın paytaxtında baş vermiş hadisələr dövlətçiliyimizə, müstəqilliyimizə zərər vuran hadisə kimi pislənmişdi.

Heydər Əliyevin uğurlu xarici siyasəti türk dünyasında yüksək qiymətləndirilmiş, 1999-cu ildə ona türk dünyasının ən mötəbər mükafatı - Beynəlxalq Atatürk Sülh mükafatı verilmişdi. Bu hadisə həmkarlar ittifaqı təşkilatları üzvləri tərəfindən böyük rəğbətlə qarşılanmışdı. Bununla əlaqədar, 1999-cu il noyabrın 5-də AHİK-də respublikada fəaliyyət göstərən ictimai təşkilatların nümayəndələrinin toplantısı keçirilmişdi.

Ulu öndər Azərbaycan həmkarlar ittifaqlarının əməkçilərin hüquqi və sosial mənafelərini müdafiə etmək sahəsində fəaliyyətlərini yüksək qiymələndirmişdir. Onun AHİK-in 1998-ci ilin fevralında keçirilmiş birinci qurultayının iştirakçılarına müraciətində deyilirdi: "Əmin olduğumu bildirmək istəyirəm ki, həmkarlar təşkilatları öz işini yeniləşən cəmiyyətimizin tələblərinə uyğun quracaq, Azərbaycanda müstəqil, demokratik, dünyəvi dövlət quruculuğunda yaxından iştirak edəcəkdir".

2003-cü il fevralın 5-6-da AHİK-in II qurultayının iştirakçılarına müraciətində də Ümummilli lider əmin olduğunu bildirirdi ki, həmkarlar ittifaqları dövrün tələblərinə uyğun olaraq öz fəaliyyətini yenidən təşkil edəcək, Azərbaycan Respublikasında demokratik, azad cəmiyyətin, insanların firavan həyatının bərqərar olması yolunda gələcəkdə də ön sıralarda addımlayacaqdır.

AHİK-in II qurultayının nümayəndələri isə Heydər Əliyevə müraciət qəbul etmiş, həmkarlar ittifaqlarına göstərdiyi qayğı və diqqətə görə öz minnətdarlıqlarını bildirmişdilər. Fevralın 6-da Heydər Əliyev Prezident sarayında həmin qurultayda iştirak edən xarici həmkarlar ittifaqları təşkilatlarının nümayəndələrini qəbul etmiş və görüşdə "Azərbaycan həmkarlar ittifaqlarının qurultayını ölkənin ictimai-siyasi həyatında mühüm hadisə adlandırmışdı".

Bu gün Azərbaycan Həmkarlar İttifaqları beynəlxalq həmkarlar ittifaqları ailəsinin bərabərhüquqlu üzvü kimi cəmiyyətdə yüksək nüfuza malik olmaqla öz missiyasını layiqincə icra edir. Bunu 2013-cü ildə AHİK-in keçirdiyi IV qurultay bir daha sübut etdi. Ulu öndərin layiqli varisi, Prezident İlham Əliyevin qurultay iştirakçılarına göndərdiyi təbrikdə deyilirdi: "Bir əsrdən çox tarixə malik olan Azərbaycan Həmkarlar İttifaqları müstəqillik illərində daha da inkişaf etmiş, ölkənin ictimai həyatında öz layiqli yerini tutmuşdur".

Mənə elə gəlir ki, bizim üçün bundan yüksək qiymət ola bilməz!

***- Dediyiniz kimi, Ulu öndər həmkarlar ittifaqlarını işçilərin mənafeyinin, əmək hüquqlarının, sosial problemlərinin həllində mühüm rol oynayan başlıca qüvvə kimi görürdü...***

- Yuxarıda dediyim kimi, Ümummilli lider vətəndaşların qanuni mənafeyini, əmək hüquqlarını qoruyan, sosial problemlərinin həllində mühüm rol oynayan, zəngin tarixi keçmişə malik həmkarlar ittifaqı təşkilatlarının fəaliyyətinə daim diqqət və qayğı göstərmişdir. Azərbaycanda Heydər Əliyev epoxasının başlanması təşkilatımızı yeni inkişaf mərhələsinə çıxardı, onun cəmiyyətdəki yerini və rolunu gücləndirdi.

Bu gün həmkarlar ittifaqları əmək prosesinə cəlb olunmuş vətəndaşlarımızın hüquqlarının müdafiəçisi kimi ölkəmizdə fəaliyyət göstərən əksər müəssisələrdə, o cümlədən xarici sərmayə ilə işləyən təşkilatlarda, transmilli şirkətlərdə iş şəraitinin müasir standartlara uyğun-

# Azərbaycan Həmkarlar İttifaqları Ulu Öndərin ideyalarına həmişə sadiqdir

*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti, Milli Məclisin deputatı Səttar Möhbalıyevin yap.org.az-a müsahibəsi*

laşdırılması, sosial problemlərin həlli və əmək hüquqlarının təmin olunması sahəsində yeni metod və vasitələrdən istifadə edərək daha ardıcıl və məqsədyönlü fəaliyyət göstərməyə çalışır, sosial siyasətin həyata keçirilməsinə önəmli dəstək verirlər.

Ulu öndərin layiqli davamçısı cənab Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə həmkarlar ittifaqlarının qanunvericilik bazası daha da təkmilləşdirilmiş, onların səmərəli fəaliyyəti üçün əlverişli şərait yaradılmışdır. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyasının üzvü kimi respublikamızın dünyada nüfuzunun yüksəlməsində də fəal iştirak edir, vətəndaş cəmiyyəti quruculuğuna, demokratiyanın dərinləşməsinə və inkişafına öz töhfələrini verir.

Bu gün möhtərəm Prezident cənab İlham Əliyevin apardığı siyasətin məqsədi ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, dayanıqlı inkişafa və ilk növbədə Azərbaycan vətəndaşının daha da yaxşı yaşamasına nail olmaqdır. Məhz buna görə də mükəmməl işlənib hazırlanmış bütün dövlət proqramlarında sosial məsələlərin həlli nəzərdə tutulur, maaşların, pensiyaların, sosial müavinətlərin, ünvanlı sosial yardımın artırılması və eyni zamanda sosial infrastrukturun yaradılması istiqamətində tədbirlər müəyyənləşdirilir.

Sosial sahədə aparılan məqsədyönlü siyasət nəticəsində ölkə əhalisinin güzəranı daha da yaxşılaşmış, sosial obyektlərin tikintisi və istifadəyə verilməsi sürətlənmiş, məşğulluq probleminin həllində böyük irəliləyişə nail olunmuş, aztəminatlı ailələrin sosial müdafiə mexanizmi işlənib hazırlanmışdır. Son illərdə dərin maliyyə böhranı nəticəsində bir sıra ölkələrdə iqtisadiyyatın tənəzzülə uğradığı və sosial gərginliyin artdığı, əhalinin sosial təminatı məsələlərinin diqqətdən kənarda qaldığı halda, respublikamız qlobal böhranın təsirindən qorunur, sosial-iqtisadi inkişaf, vətəndaşlarımızın rifah halının yüksəldilməsi tədbirləri ardıcıl davam etdirilir, əməyin və sağlamlığın mühafizəsi, bütün kateqoriyadan olan işçilərin əməkhaqlarının və təqaüdlərin artırılması istiqamətlərində mühüm addımlar atılır.

Ulu öndər Heydər Əliyevin dövlətçilik və humanizm ideyalarının həyata keçirilməsində Birinci vitse-prezident xanım Mehriban Əliyevanın da mühüm xidmətləri vardır. O, ali dövlət vəzifəsinə təyin edilənədək də Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri kimi istər ölkəmizdə, istərsə xaricdə bu ideyaların gerçəkləşməsi istiqamətində böyük fədakarlıqlar göstərmişdir. Birinci vitse-prezident vəzifəsində Mehriban xanımın ilk rəsmi qəbulunu ölkəmizin ərazi bütövlüyünün müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş hərbçilərlə keçirməsi, onların problemlərinin həlli üçün konkret tədbirlər görməsi Azərbaycan dövlətinin öz vətəndaşlarına sosial qayğısının bariz təzahürlərindəndir.

Azərbaycan həmkarlar ittifaqları təşkilatları ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli inkişaf strategiyasının həyata keçirilməsində öz öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırlar. Vətəndaş cəmiyyətinin fəal təsisatlarından biri kimi çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası - ölkənin ən kütləvi ictimai təşkilatı vətəndaşların hüquq və mənafelərinin daha dolğun müdafiəsi üçün bütün imkanlarını səfərbər edəcək, daim əməkçi insanların yanında olacaqdır.

Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin adı Azərbaycanın özü qədər əbədi olacaq, onun ideyaları gələcək yollarımıza daim nur ələyəcəkdir. Bu gün Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi, bu siyasi kursun daha da zənginləşdirilməsi nəticəsində Azərbaycan bütün sahələrdə yüksək sürətlə inkişaf edir, dünya dövlətləri arasında öz yerini daha da möhkəmləndirir. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, modernləşməsi, doğma Vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər ulu öndərin qoyduğu yolun davamının sübutudur. Bu yüksəliş isə Heydər Əliyevin müəyyən etdiyi inkişaf konsepsiyasının alternativsizliyini tam dolğunluğu ilə təsdiq edir.

## Azərbaycan-Estoniya əlaqələrinin inkişafı üçün geniş potensial var



Azərbaycan və Estoniya arasında informasiya və kommunikasiya texnologiyaları və elektron hökumət sahəsində uğurlu əməkdaşlıq mövcuddur. Ölkəmizdə tikinti, ticarət və xidmət sahələrində 10-dan artıq Estoniya şirkəti fəaliyyət göstərir. AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov iyunun 12-də estoniyalı həmkarı Sven Mikserlə görüşdə bildirib.

Görüşdə iki ölkə arasında münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə edilib, tərəflər arasında siyasi dialoqun davamlı şəkildə aparılmasının və yüksək səviyyəli mütəmadi qarşılıqlı səfərlərin və görüşlərin keçirilməsinin mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. Nazirlər 2017-ci ildə iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinin qeyd edildiyini, bununla əlaqədar məktub mübadiləsi həyata keçirdiklərini xatırladıblar. Tərəflər son illər ikitərəfli əməkdaşlıqda müsbət dinamikanı təqdir edərək, əlaqələri daha da inkişaf etdirmək üçün müqavilə-hüquq bazasının genişləndirilməsinin vacibliyini vurğulayıblar. Görüşdə, həmçinin iki ölkə arasında nəqliyyat sahəsində də əməkdaşlıq üçün geniş imkanların olduğu bildirilib. Həmçinin təhsil və turizm sahəsində əməkdaşlıq üçün mövcud olan geniş potensialdan düzgün istifadə olunmasının vacibliyi qeyd edilib.

Elmar Məmmədyarov həmkarını Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesinin cari statusu barədə məlumatlandırıb. O, Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyinə görə Estoniya tərəfinə təşəkkürünü çatdırıb. Nazirlər, həmçinin Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər, Şərq Tərəfdaşlığı layihəsi, o cümlədən Şərq Tərəfdaşlığı ölkələrinin qarşıdan gələn sammiti, Azərbaycan və Avropa İttifaqı arasında strateji tərəfdaşlıq sazişi barədə geniş fikir mübadiləsi aparıblar. Görüşdən sonra nazirlər müzakirə olunan məsələlərlə bağlı birgə mətbuat konfransı keçiriblər.

## Türkiyə Quru Qoşunları komandanı Azərbaycanda medalla təltif olunub



İyunun 12-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Quru Qoşunları komandanı, ordu generalı Salih Zeki Çolak ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Z.Həsənov ölkələrimiz arasında hərbi əməkdaşlığın ikitərəfli və NATO çərçivəsində aparıldığını, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əlaqələrin genişlənərək inkişaf etdiyini vurğulayıb. Azərbaycana növbəti səfərindən məmnunluq hissi keçirdiyini bildirən ordu generalı S.Çolak Naxçıvanda keçirilən birgə taktiki təlimlərin əhəmiyyətini qeyd edərək dövlətlərimizin əlaqələrinin qədim tarixi köklərə, mehriban dostluq ənənələrinə əsaslandığını və Azərbaycanın Türkiyənin vacib tərəfdaşı olduğunu vurğulayıb.

Sonra regiondakı hərbi-siyasi vəziyyət, Azərbaycan ilə Türkiyə Silahlı Qüvvələri arasında əlaqələrin inkişaf perspektivləri, eləcə də təcrübə mübadiləsi məqsədilə mütəxəssis heyətlərinin qarşılıqlı səfərlərinin təşkili, müxtəlif qoşun növlərinin iştirakı ilə hər iki ölkədə hərbi təlimlərin keçirilməsi və digər maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb. Görüşün sonunda iki ölkə arasında hərbi əməkdaşlığın möhkəmləndirilməsində göstərdiyi xidmətlərə görə Türkiyə Respublikası Quru Qoşunları komandanı, ordu generalı S.Çolak Azərbaycan Respublikasının "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı ilə təltif olunub.

## Bu ilin beş ayında Azərbaycana 958 min turist gəlib



Turizm sənayesi qeyri-neft sektorunda alternativ sahə kimi gündəlikdə xüsusi yer tutur. Biz bu gün Turizm Şurası olaraq həm xarici, həm də yerli vətəndaşların ölkə daxilində səmərəli vaxt keçirməsinə çalışırıq. Bu sözləri Turizm Şurasının dördüncü iclasında mədəniyyət və turizm naziri Əbülfəs Qarayev deyib. "Ötən ilin beş ayında ölkəmizə 768 min, bu ilin beş ayı ərzində isə 958 min turist gəlib. Bu da ötən illə müqayisədə 158 min nəfər, yəni 24 faiz çoxdur. Azərbaycana gələn xarici ölkə vətəndaşları ötən il 40 milyon 620 min manat bank əməliyyatı ediblərsə, bu il bu rəqəm 91 milyon manat təşkil edib", - deyə mədəniyyət və turizm naziri vurğulayıb.

# İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri müzakirə olunub

*İyunun 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Sabirabad Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda seminar-müşavirə keçirilib.*

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Heydər Əliyev Mərkəzində baş tutan tədbirdə dini icmaların sədrləri, din xadimləri, rayon ziyalıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri açan Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov dövlət-din münasibətlərinə toxunaraq bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan bu siyasətin başlıca məqsədi Azərbaycanda dinlər arasında mövcud olan tolerantlıq mühitini qoruyub saxlamaqdır. O qeyd edib ki, hazırda ölkəmizdə dini sabitliyin hökm sürməsi həmin siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir.





Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı seminar-müşavirədə məruzə ilə çıxış edərək bildirib ki, dövlət-din münasibətlərinin başlıca məqsədlərindən biri ölkədə mövcud olan tolerantlığın qorunması, müxtəlif dini konfessiyalara mənsub dini icmaların öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirməsidir. DQİDK sədrinin birinci müavini ölkəmizdə milli-mənəvi və İslami dəyərlərin qorunması və təbliği sahəsində görülən işlərdən bəhs edərək diqqətə çatdırıb ki, Azərbaycan bütün dini konfessiya nümayəndələrinin birlik, mehribanlıq şəraitində yaşadığı multikultural ölkədir. S.Salahlı, həmçinin dini radikalizmin mahiyyəti və onunla mübarizə yolları haqqında danışıb, Azərbaycan dövlətinin tarixən ölkəmizdə mövcud olan və keçmişdən bizə miras qalan mütərəqqi dini ənənələrin yaşadılması və inkişafı ilə əlaqədar gördüyü işlər haqqında məlumat verib. Sonda mövzu ətrafında müzakirələr aparılıb, seminar-müşavirə iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# 2017-ci ilin II yarısı üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elan edilib

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (KİVDF) 2017-ci ilin II yarısı üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elan edib. KİVDF-dən AZƏRTAC-a bildiriblər ki, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na müvafiq olaraq Fondun Müşahidə Şurasının rəyi əsasında 19 istiqamət üzrə KİV layihələrinin maliyyələşdirilməsi qərara alınıb.*

Müsabiqədə aşağıdakı KİV-lər iştirak edə bilərlər: Müsabiqə elan edilən günədək son 3 ildə müntəzəm nəşr olunan, dövriliyi həftədə 1 dəfədən və tirajı 2500 nüsxədən az olmayan, hər buraxılışından ən azı 1000 nüsxəsi satılan və ya abunə yolu ilə yayılan qəzetlər. Aşağıdakı KİV-lərin müsabiqədə iştirakına icazə verilmir:

- Azərbaycan Jurnalistlərinin I Qurultayında qəbul olunmuş Azərbaycan jurnalistlərinin peşə (etik) davranış qaydalarını pozması ilə əlaqədar haqqında Azərbaycan Mətbuat Şurası tərəfindən müvafiq qərar çıxarılanlar;
- Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi "qara siyahı"ya düşən qəzetlər;
- Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi "qara siyahı"dan çıxarılan qəzetlər (1 il müddətində);
- Azərbaycan Mətbuat Şurası tərəfindən xəbərdarlıq almış qəzetlər (6 ay müddətində);
- barələrində məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olanlar;
- əsasən reklam və erotik xarakterli materiallar dərc edənlər;
- təsisçisi dini qurumlar və dini icmalar olanlar;
- xarici dövlətlərin hüquqi və fiziki şəxsləri tərəfindən təsis edilən, nizamnamə kapitalında xarici dövlətlərin hüquqi şəxslərinin və ya vətəndaşlarının payı olanlar;
- xüsusi məqsədlər üçün buraxılan, pulsuz və aşağı qiymətlərlə çap məhsulu yayanlar;
- təsisçiləri dövlət orqanları olanlar.

Maliyyə yardımının şərtləri aşağıdakılardır:

- layihə təklifi müsabiqə istiqamətlərindən birinə uyğun olmalıdır;
- ərizə forması, layihə və ona əlavə olunmuş sənədlər müsabiqə qaydalarına və tələblərinə cavab verməlidir.

Hər layihə üçün maksimum məbləğ 60 min manat müəyyən edilib.

Hər KİV bir layihə təqdim edə bilər.

Sənədlər 2017-ci il iyun ayının 13-dən 29-dək, rəsmi iş günləri saat 10:00-dan 16:00-dək Fondun ofisində qəbul olunur. Sənədlər Fonda şəxsən təqdim edilməlidir. Müsabiqə ilə bağlı əlavə məlumatı www.kivdf.gov.az saytından və Fondun ofisindən əldə etmək mümkündür.

# Məcburi dövlət sosial sığorta haqlarının ödənilməsində mütərəqqi üsullar tətbiq olunur

*Muxtar respublikada məcburi dövlət sosial sığorta haqlarının ödənilməsində mütərəqqi üsullar tətbiq edilməkdədir. Məcburi dövlət sosial sığorta haqqı ödəyiciləri məcburi dövlət sosial sığorta haqlarını həm fondun internet səhifəsindən plastik bankomat kartları vasitəsilə, həm banklarda nağd qaydada, həm də yerli poçt şöbələri vasitəsilə ödəyə bilirlər. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu barədə Şahbuz rayonunun Kolanı kəndində "Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən torpaq mülkiyyətçiləri tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının mahiyyəti və bu sahədə tətbiq olunan elektron xidmətlər" mövzusunda keçirilən maarifləndirici tədbirdə iştirakçılara ətraflı məlumat verilib.*



Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun və Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Tural Quliyev çıxış edərək mövzunun əhəmiyyətindən danışıb. Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin baş məsləhətçisi Tural Cəfərov torpaq üzərində mülkiyyətin növlərindən danışaraq, torpaqların keyfiyyətinə görə 4 qrupa ayrıldığını bildirib. Həmçinin torpaq üzərində hüquqi və fiziki şəxslərin xüsusi mülkiyyət hüququ, dövlət və bələdiyyə torpaqlarının özəlləşdirilməsi, alqı-satqısı, vərəsəliyə keçməsi, bağışlanması, dəyişdirilməsi və torpaqla bağlı digər əqdlərin bağlanma şərtləri tədbir iştirakçılarının nəzərinə çatdırılıb, torpaq sahələri üzərinə yaranan hüquqların dövlət qeydiyyatına alınmasının önəmi vurğulanıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun gəlirlər şöbəsinin müdiri Əli Həsənov mövzu ilə bağlı çıxışında kənd təsərrüfatına yararlı torpaq sahəsi olan torpaq mülkiyyətçilərinin ödəməli olduqları məcburi dövlət sosial sığorta haqqı barədə məlumat verib. Sonra tədbirdə fondun əməkdaşlarından Toğrul Hüseynov, Rza Qarayev, fondun Şahbuz rayon şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən Nihad Rəhimli çıxış ediblər. Tədbirin sonunda torpaq mülkiyyətçilərini maraqlandıran suallar cavablandırılıb.

# Sabunçu rayonunda yol-nəqliyyat hadisəsi baş verib



Sabunçu rayonu, Maştağa qəsəbəsi ərazisində ağır yol-nəqliyyat hadisəsi baş verib. SİA-nın Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi xəbərə görə, iyunun 11-də saat 22:00 radələrində Sabunçu rayonu, Maştağa qəsəbəsi ərazisində Bakı şəhər sakini Nursəməd Əliyev idarə etdiyi "Mercedes" markalı avtomobillə yolu keçən paytaxt sakini Hacıağa Əzizovu vurub. Piyada xəstəxanaya aparılarkən yolda ölüb. Sabunçu RPİ tərəfindən araşdırma aparılır.

# "Gərək nəbzin Vətənin nəbzi ilə vursun"

***Nizami rayon icra hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının birgə təşkilatçılığı ilə 238 saylı orta məktəbdə 15 İyun Milli Qurtuluş Günü və 26 İyun Silahlı Qüvvələr Günü münasibətilə "Gərək nəbzin Vətənin nəbzi ilə vursun" mövzusunda vətənpərvərlik tədbiri keçirilib.***



Tədbir iştirakçıları əvvəlcə şəhid Namiq Həmzəyevin büstünü ziyarət edib, xatirəsini dərin ehtiramla yad ediblər. Sonra 15 İyun Milli Qurtuluş Günü və 26 İyun Silahlı Qüvvələr Günü münasibətilə təşkil edilmiş rəsm sərgisi ilə tanış olublar, şagirdlərin hazırladıqları fləşmoba tamaşa ediblər. Akt zalında davam edən tədbir Dövlət Himninin səslənməsi və Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsilə davam etdirilib.



Tədbirdə çıxış edən Nizami rayon icra hakimiyyəti başçısının müavini Gülnaz İsrafilova, Türkiyə Universitetləri Məzunları İctimai Birliyinin sədri Çingiz Bayramov, Jurnalist Araşdırmaları Mərkəzinin sədri Seymur Verdizadə, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının aparat rəhbəri Ramil Vəlibəyov, YAP-ın gənc fəalı Səbinə Novruzzadə və başqaları bildiriblər ki, Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun Milli Qurtuluş Günüdür: "Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün, sadəcə, təqvim bayramı deyil, böyük ictimai-siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub-saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa-dayaq olan bir insan - Heydər Əliyevdir".

Çıxışlarda o fikir də vurğulanıb ki, çox böyük bir xoşbəxtlikdir ki, bu gün ölkəmizə Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev rəhbərlik edir.

Çıxışlardan sonra tədbir ədəbi-bədii hissə ilə davam etdirilib.

Sonda sertifikatlar təqdim edilib.

***Rəfiqə***

# Nobel mükafatçısı Aziz Sancar UNEC-də

***Dünən UNEC-də kimya üzrə Nobel mükafatı laureatı, ABŞ-ın Şimali Karolina Universitetinin professoru və əslən türk olan Aziz Sancara həsr edilən "Aziz Sancar: Bir elm fədaisinin həyat hekayəsi" adlı konfrans keçirilib. Konfransda görkəmli alimin həyat və yaradıcılığından bəhs edən film nümayiş olunub. UNEC-in rektoru, professor Ədalət Muradov bildirib ki, türk dünyasının elm fədaisi Aziz Sancar Azərbaycana təhsil naziri Mikayıl Cabbarovun dəvəti ilə gəlib. Aziz Sancar şəxsiyyəti elm sahəsində Nobel alan ilk türk alimi kimi bizim üçün çox əzizdir. Elə buna görə də, bu günü UNEC-in tarixində ən əlamətdar günlərdən biri hesab edirəm".***



Rektor Azərbaycanın elm və təhsilində çox böyük islahatlar aparıldığını diqqətə çatdırıb: "Bu prosesdə Cənab Prezident İlham Əliyevin qarşımıza qoyduğu əsas vəzifələrdən biri də Azərbaycanın yüksəlişində maraqlı olan dünya alimləri və mütəxəssisləri ilə əlaqələr qurmaq, onların zəngin təcrübələrindən yararlanmaqdır. Aziz Sancar da, məhz belə alimlərdəndir". Ə.Muradov dünya şöhrətli alimin iyunun 14-də "Universitetlərdə elmi fəaliyyətin müasir idarəetmə modeli" mövzusunda keçiriləcək beynəlxalq elmi-praktiki konfransda da əsas məruzəçi kimi çıxış edəcəyini bildirib.




Sonra Aziz Sancar Azərbaycan elm ictimaiyyəti qarşısında geniş nitqlə çıxış edib. Alim Nobelə aparan yoldan söz açıb: "DNA-nın bərpa mexanizmi üzərində üç alim çalışırdıq. Çalışdığımız mövzular fərqli olduğu üçün bir-birimizlə rəqabət aparmırdıq. Üçümüz də kimya üzrə Nobel mükafatına layiq görüldük. Mən mütləq şəkildə "Nobel mükafatı alacağam" deyə düşünmürdüm. Nobeli almaq bir qədər subyektivdir. Nobel mükafatı ala bilməyən görkəmli alimlər də bəşəriyyətə bir sıra töhfələr verib. Süni intellekt sahəsində qeyri-səlis məntiq nəzəriyyəsinin yaradıcısı kimi dünyada məşhur olan Lütfi Zadəni nümunə göstərə bilərəm. Lütfi Zadənin Nobel mükafatına layiq görülməməsi bir alim kimi onun dəyərini azaltmır".

A.Sancar gənclərə elmlə məşğul olmağı tövsiyə edib: "Elm zaman alır, nəticəni həmən görməyə bilərsiniz, amma ruhdan düşməyin, gələcəkdə mütləq nəticəsini görəcəksiniz. Mən bu araşdırmaya ömrümün qırx ilini verdim". Professor Nobel mükafatı qazanmasının Türkiyə ilə yanaşı, Azərbaycanda da böyük marağa səbəb olduğunu bildirib: "Nobelə layiq görülməyimə Türkiyədən sonra böyük maraq göstərən ikinci ölkə Azərbaycan idi. Hətta Azərbaycanın Vaşinqtondakı səfiri dərhal zəng edib, mənə təbriklərini çatdırdı. Biz bir millət, iki dövlətik. Azərbaycanda olduğum üçün çox sevincliyəm".

Alimin Nobel mükafatına layiq görülməsi xəbərini necə alması barədə xatirələri auditoriyanın xüsusi marağına səbəb olub. Professor Nobel mükafatına layiq görüldükdən sonra ən çox qarşılaşdığı sualları cavablandırıb. Təqdimat mərasimindən çəkilən fotoşəklini nümayiş etdirən professor çıxışını bu sözlərlə tamamlayıb: "Bu şəkil həyatımın ən xoşbəxt anındandır. Bu anda Nobel mükafatına layiq görüldüyümü elan edirlər və mən türk dünyası qarşısında öz borcumu layiqincə yerinə yetirdiyimi hiss edirəm".

Daha sonra A. Sancar sualları cavablandırıb. A.Sancar UNEC-in fəxri doktoru adına layiq görülüb. Ə.Muradov bildirib, növbəti tədris ilində UNEC-də ən yaxşı tədqiqatçı üçün "Aziz Sancar mükafatı" təsis ediləcək. Eyni zamanda, Aziz Sancar adına Qida Mühəndisliyi Laboratoriyası yaradılacaq.

Konfransda UNEC-də Azərbaycan dilinə tərcümə edilən "Aziz Sancarın Nobel bioqrafiyası" adlı kitabçası da təqdim edilib.

***Vəli Vəliyev***

# KİV nümayəndələrinə Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti ilə bağlı kurslar keçiriləcək

*Kursları "Qarabağ Araşdırmalar Mərkəzi" İctimai Birliyi təşkil edir*

***İyunun 13-dən 19-dək "Qarabağ Araşdırmalar Mərkəzi" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının layihəsi çərçivəsində kütləvi informasiya vasitələrinin nümayəndələri üçün "Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkarlıq siyasətinin mərhələləri" mövzusunda qısamüddətli elmi maarifləndirmə və təbliğat kursları keçirəcək.***

AZƏRTAC xəbər verir ki, məqsəd son iki əsrdə ermənilər tərəfindən xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə, soyqırımı siyasətinin mahiyyəti, eləcə də Qarabağ həqiqətlərinin daha sistemli öyrənilməsi və dünya ictimaiyyətinin məlumatlandırılması istiqamətində Azərbaycan dövlətinin apardığı mühüm işlərə töhfə verməkdir.





Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərən Qarabağ Araşdırmalar Mərkəzində keçiriləcək kurslarda "Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkarlıq siyasətinin tarixi kökləri", "Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi və onun nəticələri", "XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı təcavüzü (1905-1906)", "Azərbaycanlıların soyqırımı (1918-1920-ci illər)", "Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları: DQMV-nin yaradılması və onun nəticələri (1918-1923)", "Sovet dövründə Ermənistanın Azərbaycana ərazi iddiaları və azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin nəticələri (1945-1985)", "XX əsrin 80-ci illərinin sonunda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzünün nəticələri (1988-1993)", "Millətlərin öz müqəddəratını təyinetmə və ərazi bütövlüyü prinsipləri: Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları beynəlxalq hüquq kontekstində", "Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasəti. Xocalı soyqırımı" və "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində Azərbaycanın dövlət siyasəti" mövzularında mühazirələr dinləniləcək. Mühazirələri Azərbaycanda bu sahədə tanınmış alimlər və mütəxəssislər oxuyacaqlar. Kursların sonunda dinləyicilərə sertifikatlar təqdim ediləcək.

# Quba “Soyqırımı Memorial Kompleksi”nin mövcud vəziyyəti araşdırılır

***Erməni-daşnak quldur dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi etnik təmizləmə və təcavüz siyasəti iki yüzillik tarixi əhatə edir. Bu illər ərzində minlərlə günahsız azərbaycanlı qətlə yetirilib, soyqırımı siyasəti həyata keçirilib. Ötən əsrin əvvəllərində Bakı, Qarabağ, Şamaxı, Kürdəmir, Salyan, Lənkəran və digər bölgələrdə törədilən qanlı faciələrin ağrısını xalqımız zaman-zaman yaşamışdı. Törədilən qətliamlar sırasında Quba qəzasında 1918-ci ilin aprel-may ayları ərzində 122 kənd tamamilə dağıdılmış, insanlar amansızlıqla qətlə yetirilmişdir. 2007-ci ildə Quba şəhərində aparılan tikinti işləri zamanı kütləvi məzarlığın aşkar edilməsi erməni daşnakların əməllərinin, iç üzlərinin ifşasında daha bir önəmli fakt oldu.***



Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin məlum Sərəncamı ilə erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddialarını və təcavüz siyasətini, qanlı cinayətlərini dünya ictimaiyyətinə çatdırmaq, gələcək nəsillərin milli yaddaşını qorumaq və soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə Quba şəhərində “Soyqırım Memorial Kompleksi” yaradıldı. Bu, Quba Soyqırımı Memorial Kompleksi - 1918-ci ildə bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində, həlak olan on minlərlə azərbaycanlının xatirəsini əbədiləşdirib.

Kompleksin məzarlıq hissəsindəki ərazidə açıq havada qalan insan sümüklərinin təbii proseslər nəticəsində çürüməsi, torpağın eroziyaya uğraması və sürüşmə hallarının aktivləşməsi müşahidə olunduğundan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kompleksin mövcud vəziyyətinin araşdırılması və baş verən proseslərin qarşısının alınması məqsədilə müvafiq tapşırıqlarını verib. Tapşırıqlara uyğun olaraq, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev “Quba şəhərində “Soyqırımı Memorial Kompleksi” ilə bağlı bəzi məsələlər haqqında” sərəncam imzalayıb. Sənədə əsasən, kompleksin mövcud vəziyyətinin araşdırılması və görüləcək işlər barədə müvafiq təkliflərin hazırlanması üçün aidiyyəti orqanların nümayəndələrindən, həmçinin, mütəxəssislərdən ibarət komissiya yaradılıb. Qeyd edək ki, sərəncama əsasən, Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov komissiyanın sədri təyin edilib.

Yaradılmış komissiya iyunun 9-da kompleksin məzarlıq hissəsində insan sümüklərinə və sürüşmə hallarının aktivləşdiyi ərazilərə baxış keçirib və müvafiq müzakirələr aparıb. Əli Həsənov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına müvafiq olaraq Heydər Əliyev Fondu tərəfindən yaradılmış kompleksin ən müasir standartlara cavab verdiyini və öz möhtəşəmliyi ilə seçildiyini bildirib: ”Abidə-muzeydə mövcud olan şərait və tarixi sənədlər, faktlar və ekspozisiyalar həmin dövrdə erməni millətçilərinin dinc əhaliyə qarşı törətdiyi vəhşiliklər barədə məlumat əldə edilməsi və bütün bunların dünya ictimaiyyətinə çatdırılması üçün geniş imkanlar yaradır”.

Ə.Həsənov son zamanlar kompleksin məzarlıq hissəsindəki ərazidə açıq havada qalan insan sümüklərinin təbii proseslər nəticəsində çürüməsi, torpağın eroziyaya uğraması və sürüşmə hallarının aktivləşməsinin müşahidə olunduğunu bildirib. Onun sözlərinə görə, daxil olan təkliflər yaxın zamanlarda öyrəniləcək və sistemləşdiriləcək, Azərbaycan Respublikasının Prezidentinə təqdim ediləcəkdir.

Erməni daşnaklarının Qubada həyata keçirdiyi soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirən Komplekslə bağlı problemin aradan qaldırılmasına dair ilkin təkliflər var. Bu gün Azərbaycanın dövlət və qeyri-hökumət təşkilatları, xüsusən, Heydər Əliyev Fondu Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün Quba şəhərindəki “Soyqırımı Memorial Kompleksi”nə tez-tez səfərlər edir, eləcə də, dünyanın müxtəlif ölkələrindən çoxsaylı nümayəndələr və turistlər kompleksi ziyarət edirlər. Erməni daşnaklarının törətdikləri vəhşilikləri özündə əks etdirən bu kompleksi qoruyub, gələcək nəsillərə çatdırmaq hər bir azərbaycanlının borcudur.

***Zümrüd BAYRAMOVA***

## “Əl-Riyad” qəzeti Azərbaycanda Ramazan ənənələrindən yazır



Səudiyyə Ərəbistanının “Əl-Riyad” qəzetində Azərbaycanda Ramazan ənənələri ilə bağlı məqalə dərc edilib. Müqəddəs Ramazan ayının dünyada yaşayan bütün müsəlmanların birliyini təcəssüm etdirdiyi vurğulanan məqalədə Azərbaycandakı adət-ənənələrin ərəb ölkələrinin adət-ənənələrinə çox yaxın olduğu bildirilir. Qeyd edilir ki, azərbaycanlılar Ramazana hörmət əlaməti olaraq bu müqəddəs ayda toy etmirlər. Onlar birlikdə iftar süfrələri açır, ehtiyacı olanlara və yaşlılara kömək göstərir, Quranı-Kərimi oxumaq və qulaq asmaq üçün bir yerə toplaşırlar, məscidlərdə namaz qılırlar. İftar zamanı həmişə gözlənilmədən gələn qonaq da nəzərə alınır.

## Aziz Sancar: Azərbaycan elminə töhfə vermək istəyirəm



Elmin inkişafına nail olmaq üçün bu sahəyə sərmayə yatırılmalı və aparılan araşdırmalar dəstəklənməlidir. Yalnız bu halda müvəffəqiyyət qazanmaq olar. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə müsahibəsində Bakıda səfərdə olan Nobel mükafatı laureatı, ABŞ-ın Şimali Karolina Universitetinin professoru və əslən türk olan Aziz Sancar deyib. “Azərbaycana xüsusi sevgim var. Məhz bu səbəbdən Azərbaycan elminə töhfə vermək istəyirəm. İstedadlı və bacarıqlı azərbaycanlı tələbələr mənə müraciət etsələr, onlara dəstək verməyə hazıram “, - deyən Aziz Sancar gənclərə elmlə məşğul olmağı tövsiyə edib.

## Sumqayıt şəhər sakini həmyerlisini öldürüb



Sumqayıt şəhəri V.Axundov küçəsində ölümlə nəticələnən ağır yol-nəqliyyat hadisəsi baş verib. SİA-nın Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi xəbərə görə, iyunun 11-də saat 23 radələrində Sumqayıt şəhəri V.Axundov küçəsində şəhər sakini Əmrah Ağazadə idarə etdiyi “Mercedes” markalı avtomobillə yolu keçən həmyerlisi Səadət Abdulovu vurub və nəticədə piyada hadisə yerində ölüb. Sumqayıt ŞPİ tərəfindən araşdırma aparılır.



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Əli Kərimlinin şüarı -daha çox “qurban”, daha çox pul!

***Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimlinin son zamanlar maliyyə cəhətdən sıxıntılara məruz qalması xəbəri öz təsdiqini tapdıqdan sonra, partiya daxilindən yeni informasiyanın sızması onun heç də fəaliyyətsiz qalmamasını göstərir. Belə ki, AXCP-dəki mənbəmiz vasitəsi ilə əldə etdiyimiz məlumata görə, Kərimli maliyyə resurslarını artırmaq istiqamətində köhnə taktikalarına əl ataraq, Qərb ölkələrinin səfirliklərinə ağız açmaq niyyətindədir. Xüsusilə, müavini Gözəl Bayramlının məlum “Gürcüstan işi” ifşa olunduqdan sonra AXCP sədri dalana dirəndiyinin fərqinə varmağa başlayıb. Bu baxımdan, Ə.Kərimli xarici səfirliklərə “qırmaq” atmaqdan başqa yolunun olmadığını görür. O, yaxşı bilir ki, “Yurd” sıralarından həbs olunan şəxslərin “müdafiəsinə” qalxarsa, yəni bu məsələlər ətrafında hay-haray qaldırarsa, “demokratiya naminə” qarantlar almağa müvəffəq ola bilər. Çünki bir sıra qaranlıq Qərb dairələri artıq Azərbaycan əleyhinə yeni ssenarilər işləyib-hazırlamaqdadırlar. Ona görə də, əlinə düşən fürsəti fövtə verməməyə cəhd edən Kərimli bu məsələdən qazanc götürməyə çalışır.***

Digər tərəfdən, daha öncəki hadisələrdə də - məsələn, müavini Fuad Qəhrəmanlının həbsindən sonra radikal dindarlarla birgə mitinqlər keçirən AXCP sədri həmin oyunları vasitəsilə xarici havadarlarından kifayət qədər maliyyə yardımları almağa müvəffəq olmuşdu. Ancaq Ə.Kərimli əldə etdiyi yardımlardan müvafiq məsələlərə xərcləməyərək, onları mənimsəmişdi. Məsələn, xatırlatmaq yerinə düşərdi ki, F.Qəhrəmanlının evinə gedərək, ailəsinə az miqdarda maliyyə yardımı ayırdıqdan sonra, Ə.Kərimli bu günə qədər, bir dəfə də olsun, müavininin ailəsinə baş çəkməyib. Bunu isə biz deyil, elə AXCP daxilində olan insanlar da təsdiq edirlər. Təkcə sosial şəbəkələrdə sözügedən mövzu ilə bağlı yüzlərlə şərhlər mövcuddur. Məhz bu faktor da kifayət qədər təsdiq edir ki, Ə.Kərimli hər zaman hər şeydən, o cümlədən də, siyasi həbslərdən pul qazanmağa çalışıb. Hətta belə desək, AXCP sədrinin ictimailəşdirmədiyi şüarı da var - nə qədər çox həbs, o qədər də çox maddi gəlir...

Bu baxımdan, belə hesab etmək olar ki, indi də digər müavini G.Bayramlının, eləcə də, Əfqan Muxtarlının həbsindən yararlanacaq Ə.Kərimlinin maliyyə əldə etmək imkanları yenidən genişlənir. Ancaq F.Qəhrəmanlıda da olduğu kimi, o, səfirliklərdən istədiyini qopardıqdan sonra, G.Bayramlı və Ə.Muxtarlı amillərini də atacaq bir kənara, əldə etdiyi pulların xərcləyib qurtarana qədər yeni qurbanlar axtarışına çıxacaq. Nəticədə qazanan və gəlir əldə edən yenə də AXCP sədri olacaq. Yerdə qalan cəbhəçilər isə, sadəcə, onun boğazdan yuxarı çığırdığı şüarların təsiri altında siyasi məhvə doğru sürüklənəcəklər və əslində, Ə.Kərimlinin siyasi səhnədə qalmaq cəhdlərinin arxasında duran başqa səbəbləri axtarmağa da dəyməz. Onu nə hakimiyyətə yiyələnmək, nə də başqa məsələlər maraqlandırmır. Kərimlini maraqlandıran əsas məsələ sədri olduğu AXCP adı altında aldatdığı azasaylı cameəsi vasitəsilə çoxlu pul qazanmaq və siyasi biznesini inkişaf etdirməkdir. Yəni səbəb də, məhz budur.

# Təsdiq edilmişdir:
# "OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin Ümumi Yığıncağının 10 may 2017-ci il tarixli qərarı ilə

## "OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin 2016-cı il üzrə İllik Hesabatı

**Bakı 10 may 2017-ci il**

**"OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin**
**- Direktoru Roman Alloyarov**
**- Baş mühasib vəzifəsini icra edən şəxs Fazil Cabbarov**

"OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "Emitent") bu hesabatı Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin № 10q, 03 fevral 2016-cı il tarixdə qəbul etdiyi "Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında" Qaydalarına uyğun tərtib edilmişdir.

1. Emitentin tam adı: "OMNİ" Qapalı Səhmdar Cəmiyyəti;
Emitentin qısaldılmış adı: "OMNİ" QSC;
Emitentin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi: 1700160671
Emitentin dövlət qeydiyyatının tarixi və nömrəsi: 05.11.2003, 1700160671.

2. Emitentin hüquqi ünvanı: Bakı şəhəri, Səbail rayonu, Böyük Qala küçəsi 37;
Emitentin olduğu yer: Bric Plaza, Bakı şəhəri, Bakıxanov küçəsi 24.

3. Emitentin dövlət qeydiyyatına alınması tarixindən sonra Emitentin adında və təşkilati-hüquqi formasında heç bir dəyişiklik olmamışdır. Emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaranmamışdır. Emitent hüquqi şəxslərin birləşməsi şəklində yenidən təşkil yolu ilə yaranmamışdır.
4. Emitentin 2016-cı il ərzində filial və nümayəndəlikləri yaradılmamış və ya ləğv edilməmişdir.
5. Emitentin 2016-cı il ərzində hər hansı törəmə cəmiyyəti yaradılmamış və ya ləğv edilməmişdir.
6. Emitent heç bir şirkətlər qrupuna daxil deyildir.
7. Emitent aşağıdakı fəaliyyət istiqamətləri ilə məşğul olur:
7.1. Hüquq xidmətlərinin göstərilməsi.
8. Emitent lisenziya üzrə hər hansı bir fəaliyyətlə məşğul olmur.
9. Emitent tərəfindən təklif edilən xidmətlər aşağıdakılardan ibarətdir:
9.1. Şirkətlərin təsis edilməsi və dövlət qeydiyyatına alınması;
9.2. Mülki məhkəmə icraatında iddiaçı və ya cavabdehin maraqlarının müdafiəsi;
9.3. Müxtəlif sahələr üzrə müqavilələrin tərtib olunması, bağlanması, icrası, müqaviləyə dəyişikliklər edilməsi və müqaviləyə xitam verilməsi ilə bağlı mübahisələrin tənzimlənməsi;
9.4. Azərbaycan Respublikasının mülki, vergi, əmək, bank, rəqabət, anti-inhisar və digər qanunvericilik sahələrinə dair məsləhətlərin verilməsi.
10. Emitentin işçilərinin sayı 7 (yeddi) nəfərdir. Hesabat dövrü ərzində işçilərin sayında mühüm dəyişiklik olmamışdır.
11. Emitentin idarəetmə orqanları aşağıdakılardan ibarətdir:
11.1. Cəmiyyətin təkbaşçı direktoru: Alloyarov Roman Valentinoviç
12. Emitentin fiziki şəxs olan səhmdarlarının sayı beşdir. Emitentin hüquqi şəxs olan səhmdarı yoxdur.
13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərə (paylara) malik olan şəxslər üzrə məlumatlar aşağıdakı cədvəldə göstərilib:

| Səhmdarın Soyadı, Adı və Atasının adı | Qiymətli Kağızların Növü | Səhmdara Məxsus Olan Qiymətli Kağızların Sayı | Səhmlərin Nizamnamə Kapitalında Faiz Nisbəti |
|---|---|---|---|
| Alloyarov Roman Valentinoviç | adi adlı sənədsiz səhm | 19 (on doqquz) | 19% (on doqquz) |
| Bayramov Ceyhun Əziz oğlu | adi adlı sənədsiz səhm | 30 (otuz) | 30% (otuz faiz) |
| Məmmədov Riad Eldəniz oğlu | adi adlı sənədsiz səhm | 10 (on) | 10% (on faiz) |
| Zərgərli İsmayıl Fikrət oğlu | adi adlı sənədsiz səhm | 30 (otuz) | 30% (otuz faiz) |
| Vəzirova Xatun Rzaquliyevna | adi adlı sənədsiz səhm | 11 (on bir) | 11% (on bir) |

14. Emitentin səhmdarlarının 2016-cı il ərzində keçirilmiş yığıncaqları haqqında məlumat:
14.1. 2016-cı il ərzində Emitentin səhmdarlarının bir ümumi yığıncağı keçirilmişdir:
14.1.1. Emitentin səhmdarlarının yeganə ümumi yığıncağı 23 may 2016-cı il tarixdə Bakı şəhəri, Bakıxanov küçəsi 24 ünvanında keçirilmiş və yığıncaqda aşağıdakı qərarlar qəbul edilmişdir:
(i) Emitentin illik hesabatının, mühasibat balansının və mənfəət və zərər hesablarının təsdiqi haqqında qərar;
(ii) Emitentin dividendlərinin ödənilməməsi haqqında qərar.
15. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat:
15.1. Emitentin adi adlı səhmi (bundan sonra "Səhmlər") dövriyyədədir;
15.2. Səhmlərin dövlət qeydiyyat nömrəsi və dövlət qeydiyyat tarixi: 1010500K, 21 noyabr 2003-cü il;
15.3. Səhmlərin miqdarı və nominal dəyəri: 100 (yüz) ədəd, hər bir səhmin dəyəri 20 (iyirmi) manat;
15.4. Səhmlərin məcmu nominal dəyəri: 2000 (iki min) manat;
15.5. 2016-cı il ərzində Emitent tərəfindən Səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat: dividendlər ödənilməmişdir;
15.6. Yuxarıda qeyd edilən Səhmlər istisna olmaqla, Emitent tərəfindən səhm və ya istiqraz emissiyası həyata keçirilməmişdir;
15.7. Emitentin Səhmlərinin yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer haqqında məlumat: "Bakı Fond Birjası" QSC, Bakı, Xətai rayonu, Babək pr, Ə.Quliyev 11/31, Babək Plaza 9-cu və 10-cu mərtəbələr, AZ 1025.
16. Hesabat dövrü ərzində Emitent tərəfindən xüsusi əhəmiyyətli əqdlər bağlanmamışdır.
17. Hesabat dövrü ərzində Emitent tərəfindən aidiyyəti şəxslərlə əqdlər bağlanmamışdır.
18. Ümumi yığıncaq 2016-cı il üzrə illik hesabatı 10 may 2017-ci il tarixdə təsdiq etmişdir.
19. 2016-cı il üzrə illik hesabat "Səs" qəzetində dərc ediləcəkdir.

TƏRS BAXIŞ

# Müsavat partiyası kimlərə qarşı “qara piar” kampaniyası aparır

## *ADP sədri Sərdar Cəlaloğlu yenidən İsa Qəmbəri və Arif Hacılını hədəfə aldı*

***Qarşıdan 2018-ci ildə keçiriləcək prezident seçkiləri gəlir və hələ ki, bu seçkilərə kifayət qədər vaxt qalmasına baxmayaraq, ənənəvi müxalifət düşərgəsindəki partiyalarda müəyyən gizli hazırlıqlara start verildiyi də müşahidə olunur. Bu baxımdan, indidən partiyalararası anti-təbliğatlar aparılır. Daha dəqiq desək, hansı siyasi təşkilatın media qurumu varsa, onlar həmin vasitə ilə, mətbuatı olmayanlar isə sosial şəbəkələr vasitəsi ilə “qara piar”, yaxud da özünütəbliğat kampaniyaları aparırlar. Lakin ortada görünən daha qabarıq mənzərə “qara piar” üzərindədir.***

### “Məqsəd, narazı elektoratı, məhz Müsavat partiyasını dəstəkləməyə cəlb etməkdir”

Bu arada Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlunun sözügedən məsələ ilə bağlı irəli sürdüyü fikirləri diqqət çəkir. Belə ki, ADP sədri Müsavat partiyasını hədəfə alaraq, bu siyasi müxalifət təşkilatının digər müxalifətçi siyasi partiyalara qarşı apardığı “qara piar” kampaniyası barədə sərt fikirlərlə çıxış edib. Partiya sədri bildirib ki, Müsavat partiyasının siyasi partiyalara qarşı apardığı “qara piar” kampaniyası bu partiyanın, hər zaman olduğu kimi, seçkiqabağı taktikasının tərkib hissəsidir. O, hesab edir ki, Müsavat başqanı Arif Hacılının burada özünəməxsus məqsədi var. SİTAT: “Məqsəd də mümkün qədər Müsavatı müxalifətdən kənarda saxlamaq, onu müxalifətüstü bir güc kimi təqdim eləmək, yeganə, həqiqi, saf, prinsipial, radikal müxalifət obrazı yaratmaq və bununla da, narazı elektoratı, məhz Müsavat partiyasını dəstəkləməyə cəlb etməkdir”.

### İsa Qəmbərin dadına “MSDM” çatır?

Yeri gəlmişkən, onu da xatırlatmaq olar ki, A.Hacılı Müsavatın başqanı olmasına rəğmən, 2018-ci ildə namizədliyi irəli sürüləcək şəxs bəri başdan bəllidir. Bu, sabiq başqan, “Milli- Strateji Düşüncə Mərkəzi”nin sədri İsa Qəmbərdir. Onu da qeyd edək ki, partiyanın nizamnaməsində “liderlik” statusu olmadığına görə, Müsavatın bir neçə il öncə keçirilən və saxtakarlıqları ilə yadda qalan qurultayı ərəfəsində, məhz “MSDM” yaradıldı ki, İ.Qəmbər siyasi proseslərdən kənarda qalmasın və onun seçkilərdə iştirakı reallaşdırılsın. İndiki məqamda A.Hacılının bu məsələdə ortaya atılması da, məhz həmin planın tərkib hissəsi kimi anlaşıla bilər.





Başqa tərəfdən, İ.Qəmbər hələ müsavatçılara başqanlıq edərkən, də digər düşərgə həmkarlarına qarşı bənzər oyunu oynayıb. Ona görə də, S.Cəlaloğlu hesab edir ki, bu taktikanı həyata keçirmək üçün Müsavatda müxtəlif partiyalara, müxtəlif “liderlərə” aparıcı funksionerlərə qarşı ən müxtəlif “piar” aparılır.

ADP sədri buna misal olaraq, 2013-cü ilin prezident seçkilərini xatırladıb və bildirib ki, həmin vaxtlarda da eyni situasiya yaşanıb. “İlk olaraq, bu kampaniya İqbal Ağazadədən (“Ümid” partiyasının sədri) başladı, sonra Lalə Şövkətə (Liberal Partiyasının “lideri”), daha sonra Əli Əliyevə (Vətəndaş və İnkişaf Partiyasının sədri) keçdi”-deyə qeyd etmiş ADP sədri onu da bildirmişdi ki, bunlar düşünürlər ki, başqa müxalifət partiyalarını nə qədər nüfuzdan salsalar, nə qədər həqiqi bir müxalifət qüvvəsi kimi təqdim etməsələr, bir o qədər də Müsavat daha müxalif, daha radikal, daha qüsursuz və iqtidarla bəlli bir məsafədə olan partiya kimi görünə bilər. “Bu kampaniyanın mahiyyəti bundan ibarətdir”, - deyə Cəlaloğlu ittiham irəli sürmüşdü.

ADP sədri ötən seçkilərdə irəli sürdüyü ittihamlarında heç də Müsavat partiyasına qarşı hər hansı haqsızlıq etmədiyini indi də düşünür. Göründüyü kimi, ADP sədri hazırda da 4 il öncəki fikirlərində qalmaqda davam edir və bu günün özündə, onunla müsavatçılar arasında kəskin qarşıdurmalar yaşanır.

### Arif Hacılı: “Bu, Sərdar Cəlaloğlunu çıxılmaz vəziyyətə aparır”

A.Hacılı S.Cəlaloğlunu antimüsavatçılıq fəaliyyətinə görə ittiham edib: “Cəlaloğlunun açıqlamalarının əksəriyyəti Müsavat partiyasına, onun başqanına və Müsavat partiyasının siyasətinə qarşı yönəlib. O, istənilən hadisədə, istənilən prosesdə, yalnız Müsavat başqanını ittiham etmək mövqeyini tutur. Bu, təəssüf doğurur. S.Cəlaloğlunun hamını bir yerə toplamaq cəhdi baş tutmayıb. Bu məsələdə o, nahaq yerə Müsavatı günahlandırır...Cəlaloğlu da, bir sıra qüvvələr kimi, öz uğursuzluqlarının səbəblərini özündə yox, Müsavat partiyasında axtarmaq xəttini götürüb. Bu da Sərdar Cəlaloğlunu çıxılmaz vəziyyətə aparır”.

Beləliklə, artıq ox öz yayında çıxıb və fakt budur ki, ənənəvi və dağıdıcı düşərgədə sular durulmayıb. Əksinə, partiyalar “qara piar” kampaniyasına start verərək, indidən öz siyasi üstünlüklərini əldə etməyə cəhdlər göstərirlər. Təkcə ADP sədrinin Müsavatı hədəfə alması belə deməyə əsas verir.

**R.RƏSULOV**

# “Xalqın gözündə müxalifətin bir qram dəyəri yoxdur”

## *Tahir Kərimli: “ Əli Kərimli və İsa Qəmbər yanlarında olanları alçaltmaqla özləri yüksəlməyə çalışır”*

***- Tahir bəy, artıq sübuta yetirilir ki, Əfqan Muxtarlı, Gözəl Bayramlı və digər bu kimi olayların qızışdırılmasında xarici qüvvələrin xüsusi rolu olub. Sizcə, bu kimi olaylardan maraqlı qüvvələr nə əldə etməyə ümid bəsləyirlər?***

- Böyük dövlətlərin və beynəlxalq təşkilatların əlində heç bir demokratik düşüncə yoxdur. Yalnız müxalifətdən bir alət kimi həmin ölkələrin daxili işinə qarışmaq üçün istifadə olunur. Hər kəs çox gözəl bilir ki, xarici maraqlı dairələr Azərbaycanın dağıdıcı qanadı vasitəsilə Bakıda özlərinin “beşinci kolon”unu yaradırlar. Müəyyən öhdəliklərin qarşılığında onlara maliyyə yardımları ayırırlar. Yəni QHT-ləri, siyasi partiyaları, bir sözlə, süni müxalifət yaradaraq, onlara maliyyə yardımları edirlər. Ümumiyyətlə, xarici havadarlar bu cür qüvvələrdən istifadə etməklə ölkədə nə isə xoşagəlməz halların yaradılmasına çalışır. Amma məkrli qüvvələrin istəkləri heç vaxt real olmayıb və olmayacaq da. Pislik elə onların özlərinə qalacaqdır.




**Müsahibimiz Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimlidir**

***- AXCP sədri Əli Kərimli və Müsavat başqanı Arif Hacılı Əfqan Muxtarlı və Gözəl Bayramlı kimi məsələlərdə onların hüquqlarını müdafiə etməkdənsə daha çox öz maraqlarını təmin etməyə səy göstərirlər. Bunun siyasi riyakarlıqdan başqa bir şey olmadığını demək olarmı?***

- Təəssüflər olsun ki, müxalifət və adları çəkilən şəxslər, ancaq şəxsi ambisiyalarını düşünür və partiya maraqlarını irəli çəkib, istəyirlər ki, özlərinə dividend qazansınlar. Müxalifət düşərgəsində olan şəxslər, hər zaman çalışıblar ki, biri digərindən üstün olsun. Əli Kərimli və İsa Qəmbər yanlarında olanları alçaltmaqla özləri yüksəlməyə çalışır. Belə bir rəqabət aparmaq onları daha da gözdən salır, çıxılmaz vəziyyətlə üzləşdirərək, parçalayır.

***- Niyə görə müxalifət sivil mübarizə metodlarından imtina edib, daha çox qeyri-ciddi və dağıdıcılığa meyilliliyi olan vasitələrlə gündəmə gəlməyə çalışırlar? -***

- Müxalifət düşərgəsini təmsil edən şəxslərin bu cür vasitələrlə gündəmə gəlməyə çalışmalarının səbəbi onların heç bir güclərinin olmaması ilə bağlıdır. Çünki gücləri və sosial dayaqları olsaydı, onlar bu cür etməzdilər. Bunun da səbəbi müxalifət düşərgəsində biri-biriləri ilə yola getməmələri və biri digərini qəbul etməməsi ilə bağlıdır. Həmin müxalifət təmsilçilərinin özləri də, çox yaxşı bilirlər ki, xalqın gözündə müxalifətin bir qram dəyəri yoxdur. Yəni bu qüvvələr xalqın gözündən düşüblər.

**GÜLYANƏ**

# Sumqayıtda uşaqlar arasında zəhərlənməyə rotavirus infeksiyası səbəb olub

Ötən həftənin axırlarında Sumqayıt şəhəri və ətraf qəsəbələrdə uşaqlar arasında baş verən kütləvi zəhərlənmə böyük narahatlıq doğurub. Dörd gün ərzində 136 uşaq müalicə olunmaq üçün xəstəxanaya çatdırılıb.

AZƏRTAC-ın Səhiyyə Nazirliyinin mətbuat xidmətindən aldığı məlumata görə, uşaqların qanından götürülən nümunələrin laborator müayinələri nəticəsində xəstələrdə rotavirus infeksiyası aşkar edilib.




Nazirlikdən verilən məlumatda bildirilir ki, hazırda 46 uşağın stasionar müalicəsi davam etdirilir: “Onların vəziyyətləri kafidir və sağlamlıqları stabilləşən kimi evə buraxılacaqlar. İnfeksiya baş vermiş ərazidə tibbi-profilaktik tədbirlər və əhali arasında sanitariya-maarifi işləri davam etdirilir”.

Qeyd edək ki, rotavirus fəsil dəyişkənliyi ilə əlaqədardır, həmin xəstəliyə immuniteti zəif olanlarda, xüsusilə uşaqlarda rast gəlinir. Xəstəlik 48 saatdan az davam edən qızdırma və qusma ilə başlayır. Sulu, əsasən pis qoxu gələn qansız ishal da onun əlamətlərindən hesab edilir. Südəmər uşaqlarda qusma və ishal bədəndə suyun azalmasına gətirib çıxarır. İmmuniteti zəif olanlarda xəstəlik uzunmüddətli və ağır olur. Rotavirus xəstəliyinin davam etmə müddəti onun dərəcəsindən və orqanizmdən asılı olaraq 5-10 gün arasıdır. Xəstəlikdən qorunmaq üçün ilk növbədə gigiyenik qaydalara düzgün əməl etmək və suyu qaynadaraq içmək lazımdır.

# Azərbaycanda səhiyyə sahəsində insan hüquqları: mahiyyəti və istiqamətləri

**Müasir dövrdə tibbi hüquq sahəsində öyrənilən məsələlərdən biri insanın səhiyyə sahəsində hüququnun normativ qanunlarla təmin olunmasıdır. Bu sahə beynəlxalq və dövlətdaxili hüquqi aktlarla tənzimlənir.**

Tibbi fəaliyyət sahəsində insan hüquqlarının təmin olunmasının səviyyələri aşağıdakılardır:

- Beynəlxalq səviyyə;
- Ümumdövlət səviyyəsi;
- Yerli səviyyə.

Tibbi fəaliyyət sahəsində insan hüquqları aşağıdakı kimi təsnif edilir:

- Sağlamlığın qorunması hüququ;
- Sağlamlığa təsir edən amillər haqqında informasiya əldə etmək hüququ;
- Tibbi-sanitar yardım hüququ.

Sağlamlığın qorunması sahəsində əhalinin ayrı-ayrı qruplarının hüquqları:

- Ailə üzvlərinin hüquqları;
- Anaların və hamilə qadınların hüquqları;
- Yetkinlik yaşına çatmayanların hüquqları;
- Hərbi qulluqçuların hüquqları;
- Yaşlı insanların hüquqları;
- Əlillərin hüquqları;
- Pasiyentlərin hüquqları.

Azərbaycanda tibbi fəaliyyət sahəsində insan hüquqlarının təmin olunmasının istiqamətləri aşağıdakılardır:

- Normativ - hüquqi - vətəndaşların hüquqlarının reallaşması mexanizmini əks etdirən yuridik sənədlər;
- Təşkilati istiqamət;
- Maliyyə-iqtisadi;
- İnformasion istiqamət.

Azərbaycan Respublikası Konstitusiyasında "Sağlamlığın qorunması hüququ" bölməsi mövcuddur. Konstitusiyanın digər bölmələrində "Yaşamaq hüququna", "İstirahət hüququna", "Sosial təminat hüququna dair maddələrində də tibbi fəaliyyət sahəsində insan hüquqlarının təmin olunması məsələlərinə toxunulmuşdur.

Bundan başqa Azərbaycan Respublikasında qəbul olunmuş aşağıdakı qanunvericilik aktları mövcuddur:

1. "Əhalinin sağlamlığının müdafiə olunması haqqında" AR Qanunu (26 iyun 1997-ci il).
2. "Qan və onun komponentlərinin donorluğu haqqında" Qanun (26 sentyabr 1996-cı il).
3. "İnsan orqanlarını və (və ya) hüceyrələrinin köçürülməsi" haqqında Qanun.
4. "Psixatrik yardım haqqında".
5. Şəkərli diabetdən zərər çəkən insanlara dövlət yardımı haqqında qanunlar.

Göründüyü kimi, tibbi fəaliyyət sahəsində insan hüquqlarının təmin olunması Azərbaycan dövlətinin siyasətinin əsasını təşkil edir. Bundan başqa, qeyri-dövlət təşkilatları, xüsusilə, Heydər Əliyev Fondu bu sahədə geniş fəaliyyət göstərir.

Azərbaycan tədqiqatçısı Sevinc Budaqova özünün "Ümid qapısı, mərhəmət ünvanı" adlı fundamental əsərində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hələ Heydər Əliyev Fondunun Prezidenti olarkən, bu sahədə gördüyü tədbirlərdən bəhs etmişdir: "Heydər Əliyev Fondunun fəaliyyətinin əhəmiyyətli bir hissəsini də səhiyyə sahəsində həyata keçirilən layihələr təşkil edir. Tibb ocaqlarının, uşaq müalicə-profilaktika müəssisələrinin yenidən qurulmasında, müasir avadanlıqla təchizatında iştirak, xarici ölkələrdən mütəxəssislərin yerli klinikalara dəvət olunmasına, treninqlərin keçirilməsinə, həkimlərin mübadiləsinə dəstək, dünyanın bir sıra aparıcı tibb müəssisələri, səhiyyə şirkətləri ilə əməkdaşlıq əlaqələrinin inkişafı bu yöndə həyata keçirilən fəaliyyətin ayrı-ayrı şaxələridir".

Müəllif daha sonra qeyd edir ki, tibbi xidmətin keyfiyyətcə müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri bütün zamanlarda dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji siyasət kursunu bu sahədə də layiqincə davam etdirir.

Ötən müddətdə səhiyyə sisteminin inkişafı - bu sahənin madditexniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzində saxlanılmışdır. Prezident İlham Əliyev ölkə həyatının digər sahələri kimi, insanların sağlamlığında mühüm rol oynayan səhiyyə ocaqlarının da inkişafına, bu sahədə mövcud problemlərin tez bir zamanda aradan qaldırılmasına çalışır. Dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərin ildən-ilə artırılması tibb müəssisələrinin fəaliyyətinin, ümumilikdə, tibbi xidmətin çağdaş tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açır. Azərbaycan Prezidenti Cənab İlham Əliyev çıxışlarında dəfələrlə vurğulamışdır ki, "biz artan iqtisadi imkanlarımızı, ilk növbədə, sosial sahələrin inkişafına, o cümlədən, səhiyyənin problemlərinin həllinə yönəltməliyik".

Səhiyyənin son illərdəki əhəmiyyətli dərəcədə artan büdcəsinə nəzər saldıqda, dövlət başçısının verdiyi vədlərin real işə söykəndiyi bir daha təsdiqlənir. Müstəqil respublikamız ötən illərdə səhiyyə sahəsində həlledici uğurlara imza atmışdır. Respublika Prezidentinin təşəbbüsü ilə son illərdə Səhiyyə Nazirliyi tərəfindən ən vacib sahələr üzrə - "Qanın, qan komponentlərinin donorluğu və qan xidmətlərinin inkişafına dair Dövlət Proqramı", "Hemofiliya və talassemiya irsi qan xəstəliyi üzrə Dövlət Proqramı", "Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı", "Yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı", "Onkoloji xəstələrin həyati vacib şiş əleyhinə preparatlarla təminatı üzrə Tədbirlər Proqramı", "Ana və uşaqların sağlamlığının qorunması haqqında Tədbirlər Proqramı" hazırlanmış və Nazirlər Kabineti tərəfindən qəbul edilmişdir.

Tibbi fəaliyyət sahəsində insan hüquqları aşağıdakı etik prinsiplərə əsaslanır:

- Pasiyentin sərbəst və şüurlu qərarına hörmət edilməsi;
- Həkimi sərbəst seçmək hüququ;
- İnsanın həyat və ləyaqətinə hörmət edilməsi;
- Peşə sirlərinə və özəl həyata müdaxilə edilməsi hüququna riayət edilməsi.

Qanunvericilik pasiyentin hüquqlarını müdafiə etmək üçün ümumi (məhkəməyə müraciət) və xüsusi üsullarını (müalicə-profilaktika müəssisəsinin vəzifəli şəxsinə və müvafiq icra orqanlarına müraciət) nəzərdə tutur.

AMEA-nın İnsan Hüquqları İnstitutunun əməkdaşı Nərgiz Həsənova Pasiyentlərin hüquqlarının müdafiəsi zamanı dünya təcrübəsindən Azərbaycanın milli spesifikliyini nəzərə almaqla istifadə etməyin zəruriliyini göstərir: "Dünyanın hüquqi və mülki inkişaf təcrübəsinin zənginliyi və müxtəlifliyi respublikamız üçün adekvat olan pasiyentlərin hüquqlarının müdafiəsinin dövlət və qeyri-dövlət institutlarının modellərini tətbiq etməyə imkan verir. Pasiyentlərin hüquqlarının pozulmasının mənbəyi həkim və pasiyent arasında yaranan münaqişədir. Onları aşağıdakı konflikyaradıcı amillər şərtləndirir:

- Həkimlərin peşəkarlıq səviyyəsinin aşağı olması;
- Etik pozuntular;
- Müalicənin gözlənilən nəticələrinin alınmaması;
- Təbabətin elmi-texnoloji və infrastruktur imkanlarının çatışmaması.

Müəllif haqlı olaraq bu sahədə milli Azərbaycan reallıqlarını nəzərə alaraq Avropa təcrübəsindən istifadə edilməsini tövsiyə edir. Böyük Britaniyada pasiyentlərin hüquqlarını müdafiə edən iki institut mövcuddur:

1. Sağlamlıq işləri üzrə Parlament səlahiyyətləri olan dövlət institutu;
2. Tibbi səhvlərin qurbanı olanları müdafiə hərəkatının timsalında qeyri-dövlət institutu. Bunlar tibbi fəaliyyət sahəsində insan hüquqlarının müdafiəsini səmərəli surətdə təmin edir.

A.D.Ramişvili, V.İ.Viter, N.İ.Nevolin "Səhiyyədə müasir hüquq və etika problemləri" məqaləsində Rusiyada tibbi sığortanın etik aspektlərinə toxunaraq, həm də tibbi yardımın əsas prinsiplərinin kobud pozulmasını da diqqətə çatdırırlar:

- İnsan sağlamlığı və yaşamaq hüququ;
- Seçim hüququ;
- Həkimin tibbi yardım göstərmək obrazının pozulması;
- Sosial ədalətə riayət edilməsi".

Müasir dövrdə Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu gedişində mövcud səhiyyə sisteminin demokratikləşməsi və bu sahədə qanunvericilik aktlarının təkmilləşdirilməsi prosesi davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" və "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər Proqramı"na əsasən, ARDNŞ-in maliyyə vəsaiti hesabına respublikamızın 10-dan artıq bölgəsində beynəlxalq standartlara cavab verən yeni müalicə-diaqnostika mərkəzləri inşa edilir. Artıq Lənkəranda, Siyəzəndə, Şirvanda, Naxçıvanda və Şahbuz rayonunda müasir tələblərə cavab verən müalicə-diaqnostika mərkəzləri əhalinin istifadəsinə verilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin bu müalicə-diaqnostika mərkəzlərinin açılışında şəxsən iştirak etməsi də, onun səhiyyə sisteminə yüksək qayğısının əyani təzahürü kimi diqqəti çəkir. Dövlət başçısının tapşırığı ilə bu diaqnostika mərkəzlərinin hamısında ən unikal cərrahi əməliyyatların aparılması üçün hər cür şərait yaradılmış, məşhur Avropa, Amerika və Yaponiya şirkətlərinin istehsalı olan qabaqcıl tibbi avadanlıqlar quraşdırılmışdır.

Səhiyyəyə dövlət qayğısının tərkib hissəsi kimi, Azərbaycan Respublikası Prezidentinin 13 mart 2008-ci il tarixli Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının yaradılması haqqında Sərəncamı da xüsusi əhəmiyyət kəsb edir. Son illər ərzində Azərbaycan Tibb Universitetinin madditexniki bazasının yaxşılaşdırılması istiqamətində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmiş, ölkədə tibb kadrlarının hazırlanması səviyyəsinin yüksəldilməsi məqsədi ilə bəzi tədris klinikaları yaradılmışdır. Cərrahiyyə kafedralarının Bakı şəhərinin müxtəlif rayonlarının ərazisində yerləşməsi Azərbaycan Tibb Universitetində bu ixtisaslar üzrə tədris prosesinin normal təşkilində müəyyən problemlər yaradırdı. Dövlət başçısı bu problemləri həll etmək, bütün cərrahiyyə kafedralarını bir mərkəzdə cəmləşdirmək, nəticə etibarilə tədris prosesinin təşkilini yaxşılaşdırmaq, həmçinin, ixtisaslaşdırılmış tibbi təhsilin və tibb elminin inteqrasiyasını təmin etmək, nəzəri bilikləri praktik təcrübə ilə daha sıx əlaqələndirmək məqsədi ilə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının yaradılmasını qərara almış və bu məqsədlə Azərbaycan Prezidentinin Ehtiyat Fondundan zəruri maliyyə vəsaiti ayrılmışdır.

Dövlət başçısının 2007-ci ilin sentyabrında imzaladığı Sərəncamla özünəməxsus ənənələri ilə nəinki Azərbaycan tibb elmində, eləcə də, keçmiş İttifaqda, Avropa və dünyanın ən qabaqcıl uroloji klinikaları arasında yeri olan Respublika Kliniki-Uroloji Xəstəxanasının yenidən qurulması da səhiyyəyə göstərilən qayğının əyani təcəssümüdür. Bu Sərəncama görə, Azərbaycanda dünya səviyyəli böyrəkköçürmə mərkəzi və uroloji klinikanın yaradılması, bütövlükdə, transplantasiya elminin inkişafı üçün tədbirlər planı nəzərdə tutulmuşdur. Bu işlərin görülməsinə və eyni zamanda, xəstəxananın müasir avadanlıqla təchiz edilməsinə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Səhiyyə Nazirliyinə 6 milyon manal məbləğində vəsait ayrılmışdır.

*Vahid ÖMƏROV,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 13 iyun


## Sən demə, xərçəngin şəfası qara düyüdədir...

Luiziana Universiteti alimləri sübut ediblər ki, tərkibində şəkərin miqdarı aşağı olan qara düyü ürək və xərçəng xəstəliklərinin müalicəsinə kömək edir. Alimlər qara düyünün kəpəyinin antioksidantlarla zəngin olduğunu aşkara çıxarıblar. Antioksidantlar qaragilə və qırmızı bibərin tərkibində də vardır. Bu maddələr zərərli molekulları udub arteriyaları müdafiə edir, xərçəngin əmələ gəlməsinin əsas səbəbi olan DNT-nin zədələnməsinin qarşısını alır.

## Alimlər: Çuğundur şirəsi içən idmançılar məşqlərdə az yorulurlar

Çuğundurun xassələrini öyrənən Ekster Universitetinin (İngiltərə) alimləri müəyyən ediblər ki, çuğundur şirəsi enerjiyə qənaət etməklə bədənin müqavimətini artırır. Alimlər müşahidə ediblər ki, çuğundur şirəsi içən idmançılar məşqlərdə az yorulurlar. Onlar tədqiqatların nəticələrinə əsasən belə qənaətə gəliblər ki, çuğundurun faydalılığını başa düşmək üçün onun şirəsindən içə-içə idmanla müntəzəm məşğul olmaq lazımdır. Müəyyən vaxtdan sonra idmançı daha az yorulduğunu hiss edir və hətta məşqlərin müddətini 16 faiz artırsa belə, heç bir fərq hiss etmir. Tədqiqatçılar çuğundurun belə təsirinin təkcə nəticəsini deyil, səbəbini də öyrəniblər.



Mütəxəssislər yeddi kişi üzərində tədqiqat aparmış, hər dəfə idmanla məşğul olduqdan sonra onların əzələlərinin gərginlik səviyyəsini ölçmüş, habelə maqnit-rezonans skanlama aparmışlar. Məlum olmuşdur ki, çuğundur şirəsi qanda nitratın miqdarını iki dəfə artırır, əzələlərin enerji mənbəyindən istifadəsini azaldır. İdmançıların əzələlərində oksigenə tələbat azaldığı üçün onlar daha səmərəli məşq edirlər.

## Diqqət: Ayaqyalın gəzmək uşaqlar üçün çox faydalıdır

Təzə doğulmuş uşaq mühitə asanlıqla uyğunlaşır. O, demək olar ki, istənilən şəraitə alışa bilər. Valideynlər uşaq üçün maksimum təbii şərait yaratmalıdırlar ki, orqanizmin anadangəlmə müdafiə qüvvəsini gücləndirsinlər. Təbii termotənzimləmə mexanizmlərini işə salmaq üçün temperaturun kəskin dəyişməsi, hava və günəş vannaları, ayaqyalın gəzmək və su prosedurları çox vacibdir. Ayaqyalın gəzmək ən mühüm möhkəmləndirici prosedurdur. Pəncə möhkəmlənir, yeriş asanlaşır, qamət və koordinasiya yaxşılaşır. Uşağın pəncəsi soyuq olduqda qorxmaq lazım deyildir. Pəncə orqanizmin termotənzimlənməsinə görə əsas cavabdeh hissədir. Bədənin istilik balansı uşağın hərəkəti hesabına tənzimlənir. Ayaqyalın gəzərkən pəncədəki bioloji aktiv nöqtələr fəallaşır. Nahamar səthdə gəzmək daha yaxşıdır.


## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika və texnologiya fakültəsinin I kurs tələbəsi Hüseynova Sona Nazim qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

AR ƏMDK yanında DƏDRX-nin Sumqayıt Ərazi İdarəsi tərəfindən verilmiş Sumqayıt şəhəri 6-cı mikr, ev-18, mənzil 62 ünvanında yaşayan Səfərov Ramin Məhsim oğlunun adına verilmiş seriya RX 0081502 saylı mənzilin ÇIXARIŞI itdiyi üçün etibarsız saylır.


## Dünya çempionatının seçmə mərhələsi çərçivəsində üç qrupda görüşlər keçirilib



İyunun 11-də futbol üzrə dünya çempionatının Avropa üzrə seçmə mərhələsi çərçivəsində "D", "G" və "I" qruplarında görüşlər keçirilib. AZƏRTAC xəbər verir ki, azərbaycanlı futbolsevərlər üçün maraq doğuran qarşılaşma "I" qrupunda yer alan Türkiyə milli komandasının görüşü olub. Qardaş ölkə təmsilçiləri səfərdə Kosovo millisinə 4:1 hesabı ilə qalib gələrək çempionata qatılmaq yolunda vacib olan üç xalı qazanıblar. Türkiyə millisinin heyətində Volkan Şen (6), Cengiz Ünder (31), Burak Yılmaz (61) və Ozan Tufan (82) fərqləniblər. Ev sahiblərinin qolunu isə matçın 22-ci dəqiqəsində Əmir Rəhmani vurub. Bu qrupun digər oyununda Ukrayna yığması səfərdə Finlandiyanı 2:1 hesabı ilə məğlub edib. Növbəti oyunda isə İslandiya millisi doğma meydanda qrupun lideri Xorvatiya yığmasına son dəqiqədə vurduğu bir qol sayəsində qalib gəlib - 1:0.

Bu turdan sonra İslandiya millisi qrup lideri ilə xalları bərabərləşdirib. Hər iki komandanın aktivində 13 xal olsa da, xorvatiyalılar top fərqinə görə liderliyi qoruya biliblər. Türkiyə millisi isə eyni xala (11) malik olduğu Ukrayna yığmasını top fərqində üstələyərək üçüncü sırada qərarlaşıb. Hər ikisi bir xal toplayan Finlandiya beşinci, Kosovo isə altıncı sıradadır.

"D" qrupunda keçirilən hər üç görüş qollu heç-heçə ilə nəticələnib. İrlandiya-Avstriya (1:1), Moldova-Gürcüstan (2:2) və Serbiya-Uels (1:1) matçlarında qalib müəyyənləşməyib. Bu qrupda Serbiya və İrlandiya yığmalarının 12, Uels və Avstriyanın isə 8 xalı var. Gürcüstan 3 xalla beşinci, Moldova isə 2 xalla altıncıdır.

"G" qrupuna liderlik edən İspaniya və İtaliya milliləri öz oyunlarını qələbə ilə başa vurublar. İspaniya yığması səfərdə Makedoniyanı (2:1), dördqat dünya çempionları isə doğma meydanda Lixtenşteyni (5:0) məğlub edib. Albaniya isə səfərdə İsrailin qapısından üç cavabsız top keçirib. İspaniya və İtaliya milliləri 16 xalla qrupa liderlik edirlər. Pireney təmsilçisi top fərqinə görə italiyalıları qabaqlayırlar. Albaniya və İsrail millilləri 9, Makedoniya yığması isə 3 xal toplayıb. Lixtenşteynin isə aktivində xal yoxdur.

## Karlos Sayns Bakıda "Formula-1" yarışlarının start cədvəlində üç mövqeyini itirəcək




"Toro Rosso"nun pilotu Karlos Sayns "Formula-1" Kanada Qran-prisinin birinci dövrəsində Romen Qrojanın maşını ilə toqquşandan sonra idarəni itirərək Felipe Massanın "FW40" markalı bolidinə çırpılıb və bununla da yürüşün həm özü, həm də braziliyalı üçün başa çatmasına səbəb olub. AZƏRTAC "motosport.com" saytına istinadla xəbər verir ki, Kanada Qran-prisinin hakimləri bu hadisəni araşdıraraq, "Formula-1"in Azərbaycanda keçiriləcək növbəti yürüşünün start cədvəlində K.Saynsı üç yerin itirilməsi ilə cəzalandırmaq barədə qərar qəbul ediblər. Bundan əlavə, K.Saynsın lisenziyasına iki cərimə balı əlavə ediləcək. İspaniyalı cari 12 ay ərzində yeddi cərimə balı toplayıb. Reqlamentə görə, yürüşçü bir il ərzində 12 cərimə balı toplasa, bir mərhələdən kənarlaşdırılmalıdır. Daha əvvəl K.Sayns bildirib ki, toqquşmadan əvvəl çətin keçilən zonada R.Qrojanın maşınını sadəcə görməyib.

## Hakan Çalhanoğlu "Çelsi" və "Arsenal"ın hədəfində!



"Bayer Leverkuzen"in yarımmüdafiəçisi Hakan Çalhanoğlu 3 klubun maraq dairəsinə düşüb. SİA-nın məlumatına görə, "Çelsi", "Latsio" və "Arsenal" 23 yaşlı futbolçuunu transfer etmək niyyətindədir. İngilis klubları buna daha şanslıdır. "Latsio" isə Hakana əsas heyətdə oynamağa zəmanət verməklə onu cəlb etməyə çalışır. Ötən mövsüm futbolçu 15 oyunda meydana çıxmışdı. Buna səbəb "Trabzonspor"un şikayəti əsasında ona verilən 4 aylıq diskvalifikasiya idi.



## "Lion"un yarımmüdafiəçisi "Fənərbaxça"ya transfer olunub

"Fənərbaxça" yay fasiləsində növbəti transferini həyata keçirib. SİA-nın məlumatına görə, İstanbul təmsilçisi "Lion"un yarımmüdafiəçisi Matyu Valbuenanı heyətinə cəlb edib. 33 yaşlı yarımmüdafiəçi və "Lion"la hərtərəfli razılıq əldə edilib. Qeyd edək ki, "Fənərbaxça" mövsümlərarası fasilədə "Trabzonspor"dan Mehmet Ekicini də transfer edib.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500